UNİKAL

№44 (2226) 29 noyabr 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az



# Monopolistlərin soyğunçuluq metodları: Sərt addımların atılması qaçılmazdır



Səh.9

## "Nə qədər faktlar ortaya çıxdı ki, əlillik təyinatında saxtakarlıqlar var" - Komitə sədri

*"Ünvanlı sosial yardım layihəsi dünyanın heç bir yerində ömürlük mərhələ deyil. Bu, keçid layihədir. Milyonlarla vətəndaşımız neçə illər bu layihədən bəhrələndi. Bu layihənin ən təhlükəli bir cəhəti insanların əməkdən aralanması və ələbaxım öyrənməsidir". "Unikal" xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin bu gün keçirilən iclasında komitə sədri, deputat Musa Quliyev deyib. "Nə qədər faktlar ortaya çıxdı ki, burada saxtakarlıqlar olub, saxta sənədlər təqdim ediblər. Əlillik dərəcəsi sırf həkim ekspertlərin qiymətləndirdiyi məsələdir. Bunun nə qədər çətin və məsuliyyətli iş olduğunu bilirəm. Bu gün o sahədən başı çıxmayan, ümumiyyətlə...*

Səh.5

## "Qərar qəbul edilərkən bu kimi məsələlər ciddi nəzərə alınmalıdır"



*Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, deputat Ceyhun Məmmədov "Unikal"a müsahibə verib. O, xərclərin optimallaşdırılması baxımından bəzi məktəblərin birləşdirilməsindən, universitetlərin tədqiqatyönlü fəaliyyətinin gücləndirilməsi üçün ayrılan vəsaitin, dini təhlükəsizlik məsələsindən və elmi...*

Səh.4

## Yüzdən çox ölkədən 500 xarici QHT COP29-da "Baku dönüşü" ilə əlaqədar birgə bəyanat yayıb




*Noyabrın 28-də COP29 QHT Koalisiyası "Baku dönüşü" ilə əlaqədar bəyanat yayıb. Bəyanatda deyilir: "100-dən çox ölkədən 500-ə yaxın vətəndaş cəmiyyəti təsisatını özündə birləşdirən COP29 QHT Koalisiyası COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycan dövlətini təbrik edir...*

Səh.2

## Şərurlu İsfəndiyarın başı qalmaqallardan açılmır



*Ölkənin aparıcı tikinti maqnatlarından biri kimi ad çıxaran və "Şərurlu İsfəndiyar" kimi tanınan iş adamı İsfəndiyar Axundova məxsus "Şərur" Mənzil-Tikinti Kooperativi (MTK) məhkəməyə verilib.*

İddiaçı Vəliyeva Sevda Dadaş qızı adlı vətəndaşdır. Məhkəmə çəkişməsi müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələrlə bağlıdır (qaynarin-

Səh.7

42_27 IYUl-QARA.qxd 11/28/2024 10:54 PM Page 2



# Xatirə ilə Natavanın sözü çəp gəldi



***Müğənni Xatirə islam Natavan Həbibinin bayağı mahnı ifaçılarınıtənqid etməsinə reaksiya verib.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, sənətçi bu cür mahnı oxuyanların heç bir günahı olmadığını deyib: "Bunun günahı həmin mahnıları sevənlərdədir. Oxuyan nə etsin? Oxuyan görür ki, tələbat "bozik" mahnılaradır".

Natavan isə Xatirənin bu sözlərinə etiraz edib və "Susa bilmərəm, bu mövzuda susanları da qınayıram. Bu mövzuya laqeyd, biganə yanaşmaq bizə yaraşmaz. Azərbaycan musiqisi peşəkarlardan bizə əmanətdir və biz əmanətə sadiq qalıb, onu zövqsüzlük və savadsızlıqla çirkləndirməməliyik. Tamaşaçının musiqi zövqünü korlamağa qarşıyam. Bu yolda savadlı, məktəb görmüş peşəkarlar əlindən gələni əsirgəməməlidir" sözlərini bildirib.

Qeyd edək ki, Natavan "Görürəm hamı hər şeydən razıdır, heç kimi heç nə narahat etmir. Narazı olub fikrimi bildirmək istəyəndə belə görürdüm ki, düz qəbul olunmur. Artıq tanışlıqlar, əlaqələr yaranıb" deyə, son günlər trend adlandırılan mahnıları tənqid edib.

# Naina İbrahimova 150 ölkənin qatıldığı gözəllik yarışmasında

***Xəbər verdiyimiz kimi, Əməkdar artist Naina İbrahimova Azərbaycanı Misirdə keçiriləcək "Beauty queen of the universe" beynəlxalq gözəllik yarışında təmsil edəcək.***

Yarışma ötən gün start götürüb. Aktrisa bununla bağlı Misirə yollanıb. 150 ölkədən olan xanımın qatıldığı yarışmada münsif kürsüsündə də fərqli peşə sahibləri oturub.

Bir çox ölkədən ola simaların yer aldığı münsiflər arasında Azərbaycandan modelyer Leyla Əhmədova var.

51 yaşlı N.İbrahimova ötən gün açılış mərasimində podiuma çıxıb. Təmsilçilər 10 gün paytaxt Qahirədə qalacaq, müxtəlif tədbirlərə qatılacaq və



şəhəri gəzəcəklər.

Yarışmanın finalı dekabrın 6-da olacaq.

Müsabiqədə ABŞ, İspaniya, Estoniya, Özbəkistan, Meksika, Mərakeş, Fransa, Almaniya, Livan və digər ölkələrdən olan gözəllər yarışır.

# "Gözümdəki narahatlıq məni qorxuya saldı"



***Rəqqasə Fatimə Fətəliyevanın səhhətində problem yaranıb.***

Bu haqda rəqqasə özü paylaşım edib. Sənətçi bildirib ki, gözündə problem yaranıb. "Gözümdə yaranan problem məni qorxuya salmışdı" deyə, Fatimə əlavə edib.

Sənətçi həkimə getdiyini və problemi aradan qaldırdığını vurğulayıb.



# Aygün Kazımova bu tərzinə 12 mindən çox xərcləyib

***Xalq artisti Aygün Kazımova fərqli geyimi ilə diqqət çəkib.***

Axşam.az xəbər verir ki, Pop kraliça ağ-qara rəngdən ibarət kombini ilə obyektiv qarşısına keçib.

Kazımovanın paltarı "Dolce&Gabbana" brendinə məxsusdur. Pencək stilində olan geyim 3895 dollar, təxminən 6621 manatdır. İfaçı tərzini eyni markadan olan çanta və ayaqqabı ilə tamamlayıb. Çantanın qiyməti 2595 dollar, yəni 4411 manat, ayaqqabı isə 813 dollar, 1382 manatdır. Müğənni təkcə geyiminə 12 414 manat xərcləyib.

Pop kraliça tərzini gümüşü aksessuarlarla və baş aksessuarı ilə tamamlayıb. Kazımova bu tərzi ilə fransız xanımlarını xatırladıb.

# Türkiyəyə gedən Vasif Məhərrəmli virusa yoluxub

***Əməkdar artist Vasif Məhhərəmlinin səhhətində problem yaranıb.***

Axşam.az xəbər verir ki, sənətçi bununla bağlı "Elgizlə izlə" verilişində deyib. O bildirib ki, Türkiyəyə konsertə gedib və orada virusa yoluxub: "Orada restoranda konsert verdim. Elə orada da soyuqladım. İynə vurdururam. Yəqin 2-3 günə düzələrəm".

# Ağadadaş Ağayev özünü təqsirli bilmir

***Binəqədi rayon Məhkəməsində hakim Vüsal Tağıyevin sədrliyi ilə Xalq artisti Ağadadaş Ağayevin məhkəmə prosesinin ilkin baxış iclası keçirilib.***

"Unikal"ın məlumatına görə, dövlət ittihamçısı ittiham aktını elan etdikdən sonra çıxış üçün söz təqsirləndirilən şəxs Ağadadaş Ağayevə verilib. Ağadadaş Ağayev özünü təqsirli bilməyərək bu gün ifadə verməyə hazır olmadığını bildirib.

Məhkəmə prosesi 3 dekabr tarixinə kimi təxirə salınıb.

# Nüşabə Ələsgərli gəlirini bu yolla artırır

***"Oğlum təki evlənsin, özümüzünkülər kifayət edər. Arzum idi deyə, kiçik toyuna İbrahim Tatlısəsi gətirdim".***



Bu sözləri Əməkdar artist Nüşabə Ələsgərli "Həmin Zaur" proqramında deyib. Müğənni "Oğlunuzun kiçik toyuna İbrahim Tatlısəsi gətirdiniz, böyük toyuna kimi gətirəcəksiniz" sualına belə cavab verib. O bildirib ki, bu dəfə heç bir əcnəbi ifaçını toya gətirməyi düşünmür.

N.Ələsgərli Tatlısəsə verdiyi qonorarla bağlı sualı isə cavabsız qoyub. Aparıcı Zaur Kamal isə "Burada söhbət milyondan gedir" sözlərini deyib.

Müğənni qazandığı pulları artırmağın üsulunu açıqlayıb: "Adamın əlinə çox pul gələndə onu dövriyyəyə qoyar".

42_27 IYUI-QARA.qxd 11/28/2024 10:55 PM Page 3



# Monopolistlərin soyğunçuluq metodları: Sərt addımların atılması qaçılmazdır

## Deputat Milli Məclisdə sərt danışdı; bəs inhisarçılar xalqın cibinə necə girirlər? - Oxuyanları şoka salacaq rəqəmlər!

***"Monopoliya və ondan qaynaqlanan haqsız rəqabət yerli istehsalımızın inkişafına çox ciddi mane olur". Bunu yola salmaq üzrə olduğumuz həftə Milli Məclisdə 2025-ci ilin dövlət büdcəsinin müzakirəsi zamanı deputat Əli Məsimli deyib.***

"Azərbaycan Prezidentinin dəfələrlə dediyi kimi, haqsız rəqabət bizim üçün böyük əngəl yaradır. Monopolistlər öz imkanlarından istifadə edərək müxtəlif üsullarla rəqiblərini sıradan çıxarırlar. Bir sıra istisnaları çıxmaq şərti ilə monopolistlər hansı sahədə bir qədər gəlir görürsə, o saat ora əl qoymağa çalışırlar və fərqində deyillər ki, bunun ucbatından xeyli insan evinə bir parça çörək aparmaq imkanından məhrum edilir. Ona görə də ölkəmizdə istehsalı mümkün olan şeylərin çoxu xaricdən gəlir. Korrupsiyaya qarşı mübarizə gücləndirilməlidir", deputat bildirib.

Qeyd edək ki, Rəqabət Məcəlləsinə görə, haqsız rəqabət - bazarda üstünlük əldə etmək məqsədilə təsərrüfat subyektinin qanunvericiliyə və işgüzar ənənələrə zidd olan, habelə ədalətsiz üsullardan istifadə etməklə rəqib təsərrüfat subyektinə zərər vuran və ya onların işgüzar nüfuzuna xələl gətirən hərəkətlərdir.

Məcəlləyə əsasən, haqsız rəqabətin formaları aşağıdakılardır:

-müştərilərə qarşı aqressiv davranış;

-rəqib təsərrüfat subyektinin nüfuzdan salınması;

-rəqibin sahibkarlıq fəaliyyətinin təqlidi;

-müştərilərin çaşdırılması və aldadılması;

-kommersiya sirrinin qanunsuz əldə edilməsi, istifadəsi və ya yayılması;

-haqsız rəqabətə səbəb olan digər hərəkətlər.

Bu formalarda haqsız rəqabətin aparılması qadağandır.

Lakin reallıq Azərbaycanda bir çoxlarının bu qadağalara məhəl qoymadığını və faktiki şəkildə soyğunçuluqla məşğul olduğunu, süni şişirdilmiş qiymətlərlə vətəndaşın cibinə girdiyini göstərir. İnanmayanlar üçün (əlbəttə, əgər beləleri həqiqətən də varsa!) konkret faktlara keçək.

### Bir məhsulun idxal qiymətindən 6 dəfə baha satılması normaldırmı?!

Beləliklə, 1-ci fakt: cari ilin ilk 9 ayında Azərbaycana xarici ölkələrdən 8 milyon 508 min 260 ədəd diş fırçası gətirilib.

Rəsmi məlumatlardan aydın olur ki, bu miqdarda fırça alışına 2 milyon 179 min 280 ABŞ dolları (3 milyon 704 min 776 manat) vəsait ödənilib (valyuta.az).

Bir sözlə, idxal olunan diş fırçasının bir ədədinin orta qiyməti 25 sent (43 qəpik) olub.

Lakin...

Lakin rəsmi mənbələrdə olan məlumata görə, ötən ay Azərbaycanda pərakəndə satış mərkəzlərində bir ədəd diş fırçasının orta satış qiyməti 2 manat 48 qəpik olub. Bu da, xaricdən alınan qiymətdən nə az, nə çox, 2 manat 45 qəpik və ya 5,8 dəfə bahadır.

Şərhə ehtiyac varmı?

### Daha bir anormallıq: maya dəyər - 5 manat, satış - 3 dəfə baha!

2-ci fakt: Ötən il Azərbaycanda 1 kq mal ətinin maya dəyəri 5 manat 90 qəpik olub. Dövlət Statistika Komitəsinin hesablamasına görə, 2023-cü ildə fərdi sahibkarlıq təsərrüfatlarında 1 kq qoyun ətinin maya dəyəri 4 manat, quş ətinin maya dəyəri isə 3 manat 86 qəpik təşkil edib.

Məlumata görə həmin təsərrüfatlar üzrə mal ətinin orta satış qiyməti 7 manat 78 qəpik, qoyun əti üzrə 6 manat 26 qəpik, quş əti üzrə 3 manat 41 qəpik olub.





Absurd orasındadır ki, bazarlarda qeyd olunan məhsulların pərakəndə satış qiymətləri bu göstəricilərdən 2-3, bəzi hallarda 4 dəfə yüksəkdir. Təkrar soruşmağa ehtiyac görürük: şərhə ehtiyac qalırmı?

### Anormallıq bitmir: əridilmiş pendirin 3 dəfə şişirdilmiş qiyməti!

3-cü fakt: bu ilin yanvar-iyul ayları ərzində Azərbaycana xarici ölkələrdən 2 milyon 702 min dollar dəyərində 578,5 ton əridilmiş pendir idxal olunub.

Xaricdən idxal olunan əridilmiş pendirin bir kiloqramının orta gömrük dəyəri 4,7 dollar (7,9 manat) olub.

Əridilmiş pendir ən çox Rusiyadan gətirilib. Bu ilin ilk 7 ayında Rusiyadan ölkəmizə 316,7 ton əridilmiş pendir idxal edilib. Rusiyadan gətirilən əridilmiş pendirin bir kiloqramının orta gömrük dəyəri 4,2 dollar (7,1 manat) olub.

Rusiyadan sonra ən çox (89,3 ton) əridilmiş pendir Ukraynadan idxal olunub ki, bu ölkədən gətirilən pendirin də bir kiloqramının orta gömrük dəyəri 4,5 dollar (7,6 manat) olub.

Qeyd edək ki, idxal olunan əridilmiş pendirin marketlərdəki pərakəndə satış qiyməti isə 22,3 manat təşkil edib. Açıqlanan rəsmi məlumatlardan da göründüyü kimi, xaricdən gətirilən əridilmiş pendir marketlərdə gömrük dəyərindən 3 dəfə baha satılır.

Onu da bildirək ki, əridilmiş pendirdən fərqli olaraq adi pendirin marketlərdəki satış qiyməti ilə gömrük dəyəri arasında daha az fərq var. Belə ki, bu ilin ilk 7 ayında xaricdən idxal olunan adi pendirin orta gömrük dəyəri 3,8 dollar (6,4 manat), marketlərdəki orta satış qiyməti isə 11,6 manat olub.

Təkrar soruşaq: yuxarıdakı rəqəmlərdən sonra hər hansı şərhə ehtiyac duyulurmu?

### Anormallıq davam edir: idxal qiyməti ucuzlaşır, satış qiyməti isə bahalaşır!

4-cü fakt: bu ilin yanvar-avqust aylarında xaricdən Azərbaycana 39 milyon 532 min dollar dəyərində 22 min 771 ton toyuq əti gətirilib.

Rəsmi məlumatlara istinadən xəbər verilir ki, idxal olunan toyuq ətinin 98%-i və ya 22 min 315 tonu ölkəyə dondurulmuş şəkildə daxil olub.

Dondurulmuş toyuq ətinin 4,5 min tonu bütöv, 17,8 min tonu isə hissələrə ayrılmış şəkildə idxal olunub. İdxal olunan toyuq ətinin 1 kiloqramının gömrük dəyəri isə 2,9 manat (1,7 dollar) olub.

Ötən ilin yanvar-avqust aylarında idxal olunan toyuq ətinin 1 kiloqramının gömrük dəyəri 2,6 manat (1,5 dollar) təşkil edib.

Açıqlanan məlumatlardan da göründüyü kimi son bir ildə idxal olunan toyuq ətinin gömrük dəyəri 7,7% və ya 20 qəpik aşağı düşüb.

Lakin absurd vəziyyət yaranıb: gömrük dəyərində azalma satış qiymətlərində əksini tapmır. Belə ki, cari ilin sentyabr ayında idxal olunan toyuq ətinin 1 kiloqramının orta satış qiyməti marketlərdə azı 6 manat olub. Yəni, ucuzlaşmayıb. Əksinə, idxal olunan toyuq ətinin qiymətində bahalaşma müşahidə edilir.

Bir daha sual ortaya çıxır: şərhə ehtiyac varmı?

Fikrimizcə, bu suala "yox" cavabı vermək kifayətdir, ən azı ona görə ki, hər şey göz qabağındadır, necə deyərlər, "kor-kor, gör-gör"...

Sadəcə onu deyək ki, istər deputat Əli Məsimlinin yola salmaq üzrə olduğumuz həftə Milli Məclisdə monopolistlər əleyhinə çıxışı, istərsə də yuxarıda diqqətinizə çatdırdığımız faktlar ölkədə inhisarçılığın ciddi problem olaraq qaldığını göstərir. Belə aydınlaşır ki, istər Rəqabət Məcəlləsinin qəbulundan, istərsə də monopolizmlə mübarizə sahəsində yeni qurumun - Azərbaycan Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin yaradılmasından hələ də bəziləri lazımi nəticə çıxarmayıblar. Əks halda faktiki olaraq soyğunçuluq həddinə çatan inhisarçılıq meydan sulamağa davam etməzdi. Görünür, müəyyən monopolistlər, işbazlar müəyyən məmurlar tərəfindən himayə olunmaqlarına güvənərək öz köhnə mərəzlərindən əl çəkməyə həvəsli deyillər. Belədə onlara qarşı hüquqi müstəvidə, qanunvericiliyin tələbləri çərçivəsində daha sərt addımların atılması qaçılmaza çevrilir.

Bu cür addımların atılıb-atılmadığını isə zaman göstərəcək, odur ki, gözləyək...

***Sənan Mirzə***

# YAP-da "Gənclərin milli hədəflərə baxışı" mövzusunda görüş keçirildi

***Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatında gənclərlə silsilə görüşlər davam edir. Gənclərlə növbəti görüş "Gənclərin milli hədəflərə baxışı" mövzusunda YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə ilə olub.***

”Unikal” xəbər verir ki, əvvəlcə YAP Yasamal rayon təşkilatının inzibati binasında yerləşən Ümummilli Lider Heydər Əliyevin büstü önünə tər gül dəstələri düzülüb, xatirəsi dərin ehtiramla yad edilib.

Görüşdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, sonra müasir müstəqil Azərbaycan dövlətinin banisi Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, Azərbaycan Respublikasında gənclərə verilən yüksək dəyər dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu siyasətin təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, onun müdrik rəhbərliyi ilə gənclərin inkişafı və vətənpərvər ruhda tərbiyəsi dövlətin əsas məqsədlərindən biri kimi müəyyən edilmişdir. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 1996-cı ildə Azərbaycan Gənclərinin Birinci Forumu keçirildi. Bu mühüm tədbir ölkəmizdə gənclər siyasətinin əsas prioritetlərinin müəyyənləşdirilməsində həlledici rol oynadı. Onun irəli sürdüyü ideyalar nəticəsində gənclərin təhsil alması, işlə təmin olunması və beynəlxalq arenada öz sözlərini deməsi üçün geniş imkanlar yaradıldı.

Prezident İlham Əliyevin rəhbərliyi ilə bu siyasət daha da inkişaf etdirilərək müasir tələblərə uyğunlaşdırılmışdır. Gənclərin bütün sahələrdə fəal iştirakı üçün hüquqi və iqtisadi əsaslar gücləndirilmiş, bir sıra qurumlar təsis olunmuşdur. Bu qurumlar vasitəsilə minlərlə gənc öz ideyalarını reallaşdırmaq, təhsil və karyera imkanlarından faydalanmaq şansı qazanır. Prezident İlham Əliyevin dəstəyi ilə gənclərin inkişafına yönəlmiş genişmiqyaslı layihələr həyata keçirilir. Gənclərin ali təhsil almaq imkanları genişləndirilib, xaricdə təhsil proqramları maliyyələşdirilir. Azərbaycanın gənc idmançıları beynəlxalq arenalarda uğurla çıxış edir. İdman infrastrukturları genişləndirilib, sağlam həyat tərzi təşviq olunur. Gənclər milli-mənəvi dəyərlərə uyğun tərbiyə olunur, onların vətənpərvərlik ruhunun möhkəmləndirilməsi üçün tədbirlər keçirilir. Dövlət başçısının həyata keçirdiyi uğurlu siyasət gənclər arasında vətənpərvərlik hisslərinin daha da artmasına zəmin yaratdı. Bu, gənclərin işğal altındakı torpaqlarımızın azadlığı uğrunda mübarizə əzmində özünü göstərdi. Onların hər biri əldə olunan Zəfərlərdə öz cəsurluğu, igidliyi ilə vətənpərvərlik salnaməsi yazdı. Ölkəmizdə gənclərin inkişafına yönəlmiş bir sıra ictimai-siyasi və iqtisadi addımlar atılır, gənclərin iştirakı ilə xüsusi layihələr həyata keçirilir. Bu istiqamətdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun rolu isə əvəzolunmazdır. Sonda qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu və Prezident İlham Əliyevin müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirdiyi gənclər siyasəti, Azərbaycan gənclərinin milli hədəflərə baxışını və bu hədəflərin həyata keçirilməsində rolunu əhəmiyyətli dərəcədə gücləndirmişdir. Bu siyasət nəticəsində Azərbaycan gəncliyi həm milli, həm də beynəlxalq arenada ölkənin maraqlarını qoruyan, milli kimliyinə sadiq bir qüvvəyə çevrilmişdir.

Çıxış edən YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə qeyd edib ki, Azərbaycan Respublikasında gənclərə verilən yüksək dəyər ölkənin güclənməsinə və milli birliyimizin möhkəmlənməsinə xidmət edir. Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti ilə təməli qoyulan gənclər siyasəti bu gün Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə yeni zirvələrə çatmışdır. Gənclərimizin milli ruhda yetişdirilməsi, onların hərtərəfli inkişafı və cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi ölkəmizin ən böyük uğurlarındandır. Ulu Öndər Heydər Əliyev gəncləri Azərbaycanın gələcəyi adlandıraraq, onların milli ideallar əsasında tərbiyə olunmasının vacibliyini vurğulamışdır. Bu strategiyanın nəticəsində gənclərimiz təhsil, mədəniyyət, idman və ictimai fəaliyyət sahələrində böyük nailiyyətlər əldə etmişlər. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu siyasət yeni mərhələyə keçmiş, gənclərin sosial müdafiəsi və özlərini reallaşdırmaları üçün geniş imkanlar yaradılmışdır. Əldə olunan tarixi qələbələrdə Azərbaycan gəncliyinin vətənpərvərliyinin, cəsarətinin və əzmkar ruhunun parlaq təzahürü oldu. Azərbaycan Ordusunda xidmət edən gənc əsgərlərimiz və zabitlərimiz öz şücaətləri ilə tarix yazaraq ölkəmizin ərazi bütövlüyünü tam bərpa etdilər. Gənclər həm döyüş meydanında, həm də arxa cəbhədə böyük fədakarlıq göstərdilər. Əldə olunan Zəfərlərdən sonra azad olunmuş ərazilərin bərpası və yenidən qurulması işlərində də gənclər fəal iştirak edir. Onlar azad olunmuş ərazilərin sürətli inkişafı üçün müxtəlif sahələrdə çalışaraq ölkəmizin gələcəyinə töhfə verir.Gənclərimiz bu gün təkcə qəhrəmanlıq göstərməklə deyil, həm də elmi, mədəni və idman nailiyyətləri ilə ölkəmizi dünyada layiqincə təmsil edir. Gənclərimiz müstəqil Azərbaycanın ən qiymətli sərvətidir və onların gələcəkdəki fəaliyyətləri ölkəmizi yeni zirvələrə aparacaq. Dövlət gənclər siyasətinin həyata keçirilməsində xüsusi rol oynamağa davam edəcək, gənclərimizə dəstək göstərməyə və onların inkişafına yeni imkanlar açmağa davam edəcəkdir. Dövlət başçısı İlham Əliyevin vurğuladığı kimi, "Biz gənclərimizə böyük ümidlər bəsləyirik. Azərbaycan gəncləri ölkəmizin gələcəyini təmin edəcək əsas qüvvədir". Bu siyasət yalnız ölkə daxilində deyil, beynəlxalq arenada da Azərbaycan gənclərinin nüfuzunun artırılmasına xidmət edir. Azərbaycanın gəncləri bu gün yüksək intellekti, kreativliyi və milli dəyərlərə bağlılığı ilə seçilir. Sonda bildirilib ki, Azərbaycan gəncliyinin milli hədəflərə bağlılığı və bu hədəflərin həyata keçirilməsində rolu Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyevin rəhbərliyi altında formalaşmış dövlət siyasəti ilə sıx əlaqəlidir. Onların uzaqgörən yanaşmaları gənclərin milli dəyərlərə, vətənpərvərliyə və ölkənin strateji məqsədlərinə bağlılığını artırıb.

Görüşdə gənclərin çoxsaylı sualları cavablandırılıb. YAP Yasamal rayon təşkilatında könüllülük fəaliyyətini uğurla başa vuran gənclərə sertifikatlar təqdim edilib.



## 4 vəkilə töhmət verildi, 2 vəkilin fəaliyyəti dayandırıldı

***Azərbaycan Respublikasının Vəkillər Kollegiyası (ARVK) Rəyasət Heyətinin növbəti iclası keçirilib.***

”Unikal” xəbər verir ki, iclasda bəzi vəkillərin dövlət qulluğuna qəbul olunması ilə əlaqədar vəkillik fəaliyyətlərinin dayandırılması və onların mükafatlandırılması, öz ərizələri ilə vəkillik fəaliyyətinə xitam verilməsi, müəyyən müddətdə üzvlük haqqından azad olunma, maddi yardım, habelə borclarının silinməsi, digər vəkil qurumlarına keçməsi ilə bağlı müraciətlərinə baxılıb, müvafiq qərarlar çıxarılıb.

Rəyasət Heyəti tərəfindən yol verdikləri intizam pozuntularına görə 5 vəkilə xəbərdarlıq edilib, 4 vəkilə töhmət verilib, 2 vəkilin fəaliyyəti müəyyən müddətə dayandırılıb, habelə 1 vəkilin fəaliyyəti dayandırılmaqla ARVK üzvlüyündən xaric olunması ilə bağlı məhkəməyə müraciət edilməsi barədə qərar çıxarılıb.

## Hərbi attaşelər "Azərkosmos"u ziyarət etdilər



***Noyabrın 28-də xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş hərbi attaşeləri Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Respublikasının Kosmik Agentliyi - "Azərkosmos"un Əsas Yerüstü Peyk İdarəetmə Mərkəzində olublar.***

”Unikal” xəbər verir ki, Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin təşkilatçılığı ilə keçirilən səfərdə ümumilikdə 15 ölkədən 17 hərbi attaşelik aparatının nümayəndəsi iştirak edib.

Qonaqlar ”Azərkosmos”un ərazisindəki infrastruktur və obyektlərlə tanış olublar. Onlara agentliyin tarixi, fəaliyyət istiqamətləri, həyata keçirilən layihələr, gələcək inkişaf planları barədə brifinq təqdim olunub.

Sonda hərbi attaşeləri maraqlandıran suallar cavablandırılıb.

## Mirzoyan finlandiyalı həmkarı ilə Azərbaycanla sülh prosesini müzakirə etdi

***Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Helsinkidə finlandiyanın xarici işlər naziri Elina Valtonen ilə görüşüb.***

”Unikal” xəbər verir ki, bu barədə "Armenpress" məlumat yayıb.

Məlumatda bildirilib ki, Cənubi Qafqazda davamlı sabitliyin bərqərar olması kontekstində Ararat Mirzoyan Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin bağlanmasının vacibliyini vurğulayıb, həmçinin regional kommunikasiyaların açılmasına dair Ermənistanın baxışını təqdim edib.

Ermənistan və Finlandiyanın xarici işlər nazirləri regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

42_27 IYUI-QARA.qxd 11/28/2024 10:58 PM Page 5



# Prezident "Kredit büroları haqqında" qanunu dəyişdi



***Prezident İlham Əliyev "Kredit büroları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun təsdiqləyib.***

"Unikal" xəbər verir ki, yenilənmiş qanuna əsasən, bundan sonra vətəndaşlar kredit bürosunun müəyyən etdiyi qaydada barəsində büroya daxil olmuş neqativ məlumat haqqında ödənişsiz bildiriş ala biləcək.

Bildirişdə neqativ məlumatı verən məlumat təchizatçısı göstəriləcək.

# Yüzdən çox ölkədən 500 xarici QHT COP29-da "Baku dönüşü" ilə əlaqədar birgə bəyanat yayıb

***Noyabrın 28-də COP29 QHT Koalisiyası "Baku dönüşü" ilə əlaqədar bəyanat yayıb.***

Bəyanatda deyilir: "100-dən çox ölkədən 500-ə yaxın vətəndaş cəmiyyəti təsisatını özündə birləşdirən COP29 QHT Koalisiyası COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycan dövlətini təbrik edir, Azərbaycanın COP29 Sədrliyi ilə yeni iqlim maliyyəsinin müəyyənləşdirilməsi, Paris Sazişinin 6-cı maddəsinin işə salınması, İtki və Zərər Fondunun fəaliyyətə başlaması kimi vacib əhəmiyyət daşıyan qərarların qəbul olunmasını mühüm irəliləyiş hesab edir.

COP29 QHT Koalisiyası üzvlərinin 84 faizi ən az inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin vətəndaş cəmiyyətini təmsil edir. Təbii ki, yeni iqlim maliyyəsi ilə bağlı sənəddə əksini tapmış məbləğin daha yüksək olmasını istəyərdik. Lakin biz müxtəlif rəyləri olan 198 tərəfin iştirakı ilə verilən bu ümumi qərarın hansı çətinliklər və gərgin müzakirələr hesabına ərsəyə gəldiyini dərk edirik. Hesab edirik ki, bu razılığın əldə olunması kollektiv səylərin nəticəsidir və Bakı üçün tarixi bir andır. Əminik ki, sənəddə maliyyə artımı ilə bağlı yer alan çağırış COP prosesində gələcək danışıqların mühüm istinad nöqtəsi olacaq.




Biz post-COP29 dövründə də iqlim fəaliyyətinin gücləndirilməsi istiqamətində fəal iş aparacaq, COP29 mirasından bəhrələnəcək, bu istiqamətdə strateji xətti davam etdirmək üçün səylərimizi əsirgəməyəcəyik".

Xatırladaq ki, COP29 QHT Koalisiyası bu ilin yayında Azərbaycan Milli QHT Forumunun təşəbbüsü ilə yaradılıb. COP29 dövründə Koalisiyaya qoşulanların sayı xeyli artıb, onların bir hissəsi COP-da xüsusi müşahidəçiliyi olan təşkilatlardır. Azərbaycan COP29-da iştirak imkanı olan və bu imkana malik olmayan Qlobal Cənub regionu üzrə QHT-lər üçün bu Koalisiya vasitəsilə inklüziv mühit formalaşdırıb. COP29 QHT Koalisiyası müntəzəm əsasda hibrid görüşlər keçirir. Bəyanatdan da aydın görünür ki, Koalisiya post-COP29 dövründə də fəal olacaq.

Ümumiyyətlə, son vaxtlar Azərbaycan QHT-lərinin təşəbbüslərinə xarici QHT-lər tərəfindən güclü dəstəyin verilməsi müşahidə edilir. 2024-cü il noyabrın 15-də COP29 çərçivəsində Azərbaycan Milli QHT Forumunun təşəbbüsü ilə Qoşulmama Hərəkatı ölkələrinin QHT-lərinin Cənub-Cənub əməkdaşlığı üzrə beynəlxalq konfransı keçirilib. Beynəlxalq konfransın yekununda Qoşulmama Hərəkatı ölkələrini təmsil edən QHT-lər Cənub-Cənub əməkdaşlığı vasitəsilə iqlim fəaliyyətinin inkişafında QHT-lərin roluna dair birgə bəyanat mətnini razılaşdırıb. COP29-da təmsil olunan vətəndaş cəmiyyəti üzvlərinə açıq olan bəyanata 137 ölkədən 1023 QHT təmsilçisi, ictimai fəal imza atıb. Qeyd edək ki, dünya ölkələrinin 71 faizini əhatə edən regionlardan vətəndaş cəmiyyəti təsisatlarının Azərbaycan QHT-lərinin təşəbbüsünə dəstək ifadə etməsi ölkənin QHT tarixində ilk dəfə baş verib".

Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin sədri Ramil İskəndərli bildirib ki, Azərbaycan dövlətinin apardığı siyasət Qlobal Cənubda böyük rəğbət və hörmətlə qarşılanır, ölkəmiz getdikcə Qlobal Cənubun güclü səsinə çevrilir. Hesab edirik ki, Qlobal Cənub QHT Platformasının yaradılmasının vaxtı çatıb.

# Baş nazir yeni qərar imzaladı



***Nazirlər Kabineti 27 aprel 2023-cü il tarixli qərarı ilə təsdiq edilmiş "Ölkənin istehlak bazarında strateji əhəmiyyətli malların Siyahısı"nda dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Yenilənmiş siyahı hələ ki, açıqlanmayıb.

# Beynəlxalq axtarışda olanlar Bakı aeroportunda saxlanıldı



***Özbəkistan vətəndaşları 1979-cu il təvəllüdlü Boyturayev İlxom Xurramoviçin və 1986-cı il təvəllüdlü Abdullayev Farxodcon Axrorconoviçin cinayət məsuliyyətinə cəlb edilməsi üçün verilmələrinə dair həmin dövlətin Baş Prokurorluğunun vəsatətləri Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən təmin edilib.***

Bu barədə "Qafqazinfo"ya Baş Prokurorluqdan bildirilib.

Məlumata görə, Özbəkistanda dələduzluq əməllərinin törədilməsində təqsirləndirilərək, beynəlxalq axtarışa verilmiş İ.X.Boyturayev 29.08.2024-cü il tarixində və F.A.Abdullayev 01.09.2024-cü il tarixində Heydər Əliyev adına Beynəlxalq Hava Limanında sərhəd nəzarətindən keçərkən saxlanılıb, barələrində həbs qətimkan tədbiri seçilib.

"Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 07.10.2002-ci il tarixli Konvensiyaya əsasən təqsirləndirilən şəxslərin ekstradisiyası haqqında qərarlar qəbul edilib və onlar Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə Özbəkistanın səlahiyyətli orqanına təhvil veriliblər.

# MN işi ilə bağlı yeni məhkəmə başlayır

***Müdafiə Nazirliyinin tabeliyində olan müxtəlif hərbi hissələrdə maliyyə xidmət rəisi işləmiş daha bir sabiq vəzifəli şəxsin ibtidai istintaqı tamamlanıb.***

Təqsirləndirilən Elvin Cəfərov haqda Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində toplanmış materiallar məhkəməyə göndərilib.

E.Cəfərovun əməli nəticəsində dövlətə 2 milyon 200 min manat ziyan dəyib. İstintaqın əvvəlində ziyanı ödəməsi şərti ilə onun azadlıqda qalmasına şərait yaradılıb. Amma o, DTX-nin verdiyi fürsətdən lazımınca istifadə etməyib. Bu səbəbdən barəsində həbs-qətimkan tədbiri seçilib. Cinayət işi Bakı Hərbi Məhkəməsində hakim Fikrət Əliyevin sədrliyi ilə araşdırılacaq.

Bu iş üzrə Maliyyə Nazirliyi zərərçəkmiş qismində tanınıb.

Müttəhim Cəfərov bir müddət əvvəl 143 milyonluq cinayətdən mühakimə edilən başqa zabitlərin məhkəməsində də şahid qismində ifadə verməmişdi. Bu dəfə şahid kürsüsündən müttəhim kürsüsünə yerini dəyişdirəcək.



O, ittiham edildiyi AR Cinayət Məcəlləsinin 179.4-cü (mənimsəmə-xüsusilə külli miqdarda törədildikdə) maddəsi ilə təqsirli bilinərsə 14 ilə kimi azadlıqdan məhrum edilə bilər.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5"
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000



# Xəzərdə zəlzələ oldu

***Zəlzələlərin tədqiqatı bürosunun məlumatına əsasən, Xəzər dənizində 3.6 maqnitudalı zəlzələ qeydə alınıb.***

Bu barədə "Unikal"a Seysmoloji Xidmət Mərkəzindən məlumat verilib.

# Azərbaycanla Türkiyə hərbçiləri birgə təlimdə tapşırıqları icra ediblər

***Azərbaycan və Türkiyə respublikalarının Hərbi Dəniz Qüvvələrinin (HDQ) sualtı hücum və sualtı müdafiə bölmələri ilə keçirilən "SAT-SAS-2024" birgə təlimində növbəti tapşırıqlar icra olunub.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən xəbərə görə, təlimin planına əsasən, hər iki ölkənin dəniz xüsusi təyinatlı bölmələri




kustar üsullarla hazırlanmış partlayıcıların təhlükəsizlik tədbirləri nəzərə alınmaqla zərərsizləşdirilməsi, həmçinin şərti düşmənin hədəf gəmisinə sualtı gizli yaxınlaşaraq xüsusi dəniz minalarının quraşdırılması üzrə tapşırıqları yerinə yetiriblər.

Birgə təlimdə əsas diqqət hərbi qulluqçuların nəzəri biliklərinin artırılmasına, praktiki vərdişlərinin təkmilləşdirilməsinə, eləcə də qarşılıqlı təcrübə mübadiləsinin aparılmasına yönəldilib.

# Prezident ailəsi ilə birlikdə Mərkəzi Nəbatat Bağında

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Bakıda abadlıq, əsaslı yenidənqurma, tikinti və genişləndirmə işlərindən sonra Mərkəzi Nəbatat Bağının açılışında iştirak ediblər.***



"Unikal" xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Mərkəzi Nəbatat Bağında yaradılan şəraitlə bağlı ətraflı məlumat verdi.

Qeyd edək ki, dövlətimizin başçısı Mərkəzi Nəbatat Bağında görülən işləri daim diqqət mərkəzində saxlayıb. Belə ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə - 2023-cü ilin iyul və bu ilin iyun ayında Mərkəzi Nəbatat Bağında görülən işlərlə tanış olmaları bunu bir daha təsdiq edir.

Bildirildi ki, əsaslı yenidənqurma və bərpa işləri nəticəsində Mərkəzi Nəbatat Bağının ərazisi 39 hektardan 45 hektara çatdırılıb. Bağda giriş kompleksi yaradılıb, müasir tələblərə, tikinti normalarına cavab verən yeni oranjereyalar, fəvvarə inşa edilib, mövcud oranjereyalar əsaslı təmir edilib. Burada xarici ölkələrdən gətirilmiş xüsusi şəraitdə bəslənən müxtəlif növdə nadir dekorativ ağaclar, kol və güllər əkilib.

Bağın ərazisində bitkilərin yetişdirilməsi məqsədilə 3 bloklu istixana, göl kompleksi və baxış meydançası inşa edilib.

Məlumat verildi ki, bağın ərazisində dördmərtəbəli yeni inzibati bina inşa edilib, aypara formalı ikimərtəbəli qədim inzibati binada isə əsaslı təmir-bərpa işləri aparılıb. Nəbatat Bağında piyadalar üçün 650 metr uzunluğunda müasir körpü tikilib və lift quraşdırılıb. Bağın ərazisində iki restoran fəaliyyət göstərəcək. Həmçinin bağda labirint formalı yaşıllıq zonası ilə yanaşı, uşaq-əyləncə meydançası, avtomobillər üçün parklanma yeri də yaradılıb. Köhnə giriş zonası öz tarixi üslubunda təmir edilib. Yeraltı su anbarları, nasosxanalar və qazanxanalar inşa edilib. Ərazi boyu hasar yenidən qurulub, piyada yolları salınıb, müasir oturacaqlar, işıqlandırma, yanğından mühafizə və videomüşahidə sistemləri quraşdırılıb, ümumi sahəsi 26 hektar olan yaşıllıqların suvarma sistemləri yenilənib.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları əsasında Mərkəzi Nəbatat Bağında həyata keçirilən abadlıq və yenidənqurma tədbirləri ölkəmizdə bitki biomüxtəlifliyinin qorunmasına və səmərəli istifadəsinə göstərilən xüsusi diqqətin bariz nümunəsidir.

Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun mühafizəsi məqsədilə 1934-cü ildə yaradılan Mərkəzi Nəbatat Bağı ekoloji təmizliyin qorunması, elmi araşdırma, tədris və maarifləndirmə baxımından mühüm əhəmiyyətə malikdir. Burada dünyanın müxtəlif iqlim zonalarından toplanan bitki kolleksiyaları yalnız onların mühafizəsi məqsədilə deyil, həm də ölkədə bu sahədə elmi tədqiqatların davamlı inkişafına xidmət edir.

Son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakı şəhərində abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınıb, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulub. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır.

# ABŞ mətbuatı Fransanın müstəmləkə istismarının ekoloji fəsadlarından yazıb

***Tanınmış politoloq və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham baş qərargahı Nyu-Yorkda yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında dərc olunmuş "Müstəmləkə bölgələr üçün iqlim ədaləti vacib şərtdir" başlıqlı məqaləsində Fransa və digər Avropa dövlətlərinin müstəmləkə istismarının ekoloji fəsadlarından yazıb.***




"Unikal" xəbər verir ki, məqalədə ekoloji vəziyyətin fövqəladə hal alması məhz müstəmləkəçiliyin mirası olaraq səciyyələndirilib. Qlobal Cənubun torpağının və havasının Qlobal Şimalın zibilxanası kimi istifadə olunduğu göstərilib.

Diqqətə çatdırılıb ki, İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panel təşkilatı yarandığı otuz ildən artıq müddətdə ilk dəfə olaraq 2022-ci il üzrə hesabatında "müstəmləkəçilik" terminini qeyd edib. Yazıda iqlimşünaslıq sahəsinin aparıcı alimlərinin müstəmləkəçiliyin iqlim böhranında keçmiş və indiki amil olduğunu etiraf etdikləri də bildirilib. Vurğulanıb ki, dünyanın hər yerindən olan məmurlar və elm adamları artıq müstəmləkəçiliyin planetimizin istiləşməsi və onun çoxsaylı nemətlərinin məhvində oynadığı mühüm rolu dərk edir. Müstəmləkəçiliyin zərərlərini aradan qaldırmadan ekoloji ədalətə nail olmaq qeyri-mümkündür.

Müəllif vaxtilə müharibə şəraitindən çıxmış Qarabağ bölgəsinə səfər edərkən erməni köçkünlərinin bölgədə necə ciddi ekoloji böhran yaratdığının şahidi olduğuna diqqət çəkib. Çirklənmiş, balıqsız çayları, kökündən qoparılmış ağacları, yandırılmış əkin sahələrini, minalarla əhatə olunmuş, dağıdılmış minlərlə evi və çuxurlarla dolu torpaq yolları gördüyünü yazıb: "Vəziyyət ekoloji baxımdan o qədər ciddi idi ki, bir vaxtlar gözəl ekosistemi ilə "Qara Bağ" kimi tanınan bölgə otuz illik erməni işğalından sonra "Qafqazın Xirosiması" adlandırıldı".

Yazıda Azərbaycanın Qarabağı yaşıl zona kimi bərpa etdiyi və müstəmləkəçiliyin dağıdıcı nəticələrinin, ətraf mühitə mənfi təsirlərinin şahidi Qlobal Cənubun digər ölkələrini ruhlandırdığı qeyd olunub. Məqalənin sonunda müəllif diqqətçəkən açıqlama verib: "Həqiqətən də Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə erməni köçkün müstəmləkəçiliyi tarixin zibilliyinə atıldı. Digər müstəmləkəçi qüvvələr də tezliklə onun ardınca gedə bilər".

# Yeni ildə 7 gün ardıcıl iş olmayacaq

***İş və istirahət günlərinin yerləri dəyişdirilib."Unikal"ın xəbərinə görə, Nazirlər Kabineti bu barədə qərar verib.***



Qərara əsasən, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2024-cü il 30 dekabr və 2025-ci il 3 yanvar iş günləri ilə müvafiq olaraq 2024-cü il 28 və 29 dekabr istirahət günlərinin yerləri dəyişdirilib.

Qeyd edək ki, bir həftə ardıcıl - 30 dekabr və 31 dekabr 2024-cü il, 1 yanvar, 2 yanvar, 3 yanvar, 4 yanvar və 5 yanvar 2025-ci il qeyri-iş günləri olacaq.

Yeni ilin ilk iş günü yanvarın 6-sına təsadüf edəcək.

# Qarabağ və Şərqi Zəngəzurda işəgötürənlərlə görüş keçirilib



***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində işğaldan azad olunmuş ərazilərimizdə əhalinin dayanıqlı məşğulluğunun təmin olunması istiqamətində qarşıda duran vəzifələrlə bağlı işəgötürənlərlə görüş keçirilib.***

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən məlumat verilib. Görüşdə Müdafiə Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Sərhəd Xidməti, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, Minatəmizləmə Agentliyi, "Azərbaycan Hava Yolları" QSC, Ağdam, Füzuli, Xocavənd, Cəbrayıl, Qubadlı, Zəngilan, Laçın rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətlərinin nümayəndələri iştirak edib.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev Böyük Qayıdışa dair Dövlət Proqramı çərçivəsində görülən işləri, işğaldan azad edilmiş ərazilərimizdə məşğulluğun təminatı istiqamətində həyata keçirilən tədbirləri qeyd edib. Bu tədbirlərdə işəgötürənlərlə sıx əməkdaşlığın həyata keçirildiyi vurğulanıb.

İşğaldan azad olunan ərazilərimizə köçürülən və köçürülməsi nəzərdə tutulan vətəndaşların məşğulluqlarının təmin olunması məqsədilə aktiv məşğulluq proqramlarının icrası sahəsində görülmüş işlər, bu istiqamətdə qarşıda duran vəzifələr müzakirə olunub.

# Nazirlik bu partiya barədə məhkəməyə müraciət etdi

***Ədliyyə Nazirliyi Azad Demokratlar Partiyası barədə Bakı Apellyasiya Məhkəməsinə müraciət edib.***



Bu, siyasi partiyanın ləğv edilməsi ilə bağlıdır. İşə hakim Nigar Nəbizadənin sədrlik etdiyi heyət tərəfindən baxılacaq.

Qeyd edək ki, Azad Demokratlar Partiyası 6 iyul 2014-cü ildən fəaliyyət göstərirdi. Partiyanın qurucusu və sədri Sülhəddin Əkbər olub.

# Məhkəmə Əfqan Sadıqovun ekstradisiyasına qərar verdi



***Tbilisi Şəhər Məhkəməsi Əfqan Sadıqovun ekstradisiyası barədə qərar çıxarıb.***

"Unikal" xəbər verir ki, bu gün Tbilisi Şəhər Məhkəməsinin hakimi Arsen Kalatozişvilinin sədrliyi ilə iclas keçirilib.

İclasda "Azel TV"nin təsisçisi və baş redaktoru Əfqan Sadıqovun Azərbaycana ekstradisiyasına qərar verilib.

Qeyd edək ki, Əfqan Sadıqov bu il avqustun 3-də Gürcüstanda həbs edilib.

42_27 IYUl-QARA.qxd 11/28/2024 10:59 PM Page 7





## Azərbaycan və İran hərbçilərinin birgə təlimi başa çatdı

***İran İslam Respublikasının Ərdəbil vilayətinin Aslanduz yaşayış məntəqəsi yaxınlığında Azərbaycan Ordusu Quru Qoşunlarının və İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) Quru Qoşunlarının xüsusi təyinatlılarının iştirakı ilə keçirilən "Araz - 2024" birgə taktiki təlimi başa çatıb.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Bildirilib ki, təlimin əsas mərhələsində qeyri-qanuni silahlı qruplaşmaların yerlərinin, hərəkət istiqamətlərinin və hazırlıq vəziyyətlərinin müəyyənləşdirilməsi məqsədilə bölgə üzərində pilotsuz uçuş aparatları (PUA) tətbiq edilib, radio-elektron mübarizə və radio-elektron kəşfiyyat üzrə fəaliyyətlər icra olunub.

Şərti düşmənin müəyyən edilmiş mövqeləri sərrast artilleriya atəşi və PUA tətbiq olunması ilə məhv edilib.

Həmçinin düşmənin canlı qüvvəsinin məhv edilməsi üzrə tapşırıqlar hərbi qulluqçular tərəfindən yüksək dəqiqliklə yerinə yetirilib.

Ümumilikdə təlimin gedişatı və hərbi qulluqçuların peşəkarlığı yüksək qiymətləndirilib.

Təlimin yekununda fərqlənən bir qrup hərbi qulluqçu təltif edilib.

## Azərbaycanın dövlət borcu nə qədərdir? - Nazirlik açıqladı

***Bu il oktyabrın 1-nə Azərbaycanın dövlət borcu 26 milyard 201,4 milyon manat və yaxud 2024-cü il üzrə proqnozlaşdırılan ümumi daxili məhsulun (ÜDM) 21,6 %-i qədər olub.***

"Unikal" Maliyyə Nazirliyinə istinadən xəbər verir ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 52,3 % çoxdur.

Məlumata görə, borcun 9 milyard 8,5 milyon manatı və yaxud 5 milyard 299,1 milyon ABŞ dolları xarici, 17 milyard 192,9 milyon manatı isə daxili dövlət borcudur. Bunlar isə gözlənilən ÜDM-in müvafiq olaraq 7,4 %-i və 14,2 %-i qədərdir, 1 il əvvələ nisbətən müvafiq olaraq 18,9 % az və 2,8 dəfə çoxdur.

"Daxili dövlət borcunun kəskin artımı dövlət qiymətli kağızlar bazarının inkişafının dəstəklənməsi, dövlət borcunun orta və uzunmüddətli gəlirlilik əyrisinin formalaşdırılması və "Dövlət borcunun idarəedilməsinə dair orta və uzun müddət üçün Strategiya"sına uyğun olaraq xarici borcun daxili borcla əvəzlənməsi istiqamətində məqsədyönlü borclanma siyasətinin həyata keçirilməsi ilə bağlıdır", - deyə nazirlik bəyan edib.

Qurum sentyabrın sonuna xarici dövlət borcunun valyuta tərkibini də açıqlayıb:

- XBH (Beynəlxalq Valyuta Fondunun Xüsusi Borcalma Hüquqları) 3,7 %,
- ABŞ dolları 86,1 %,
- avro 6,1 %,
- yapon yeni 3,4 %,
- digər valyutalar 0,7 %.

Dəyişkən faiz dərəcəsi ilə olan öhdəliklər xarici borc məbləğinin 48,3 %-ni, sabit dərəcə ilə olanlar isə 51,7 %-ni təşkil edib. Xarici dövlət borcunun 48,5 %-i 5 ilə qədər olan müddətdə, 44,5 %-i 5 ildən 10 ilə qədər olan müddətdə, 7 %-i faizi isə 10 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalıdır. Xarici dövlət borcu beynəlxalq maliyyə institutlarından infrastruktur layihələri və maliyyələşmə proqramları üçün cəlb edilmiş kreditlər, həmçinin beynəlxalq maliyyə bazarlarında yerləşdirilmiş dövlət qiymətli kağızları üzrə hesabat tarixinə faktiki istifadə olunmuş vəsait üzrə ödənilməmiş qalıq vəsaitdən ibarətdir.

# "Qərar qəbul edilərkən bu kimi məsələlər ciddi nəzərə alınmalıdır"

Ceyhun Məmmədov: "Bu addım bölgələrdə gənclərin savadlılığına, dünyagörüşünün və intellektual səviyyəsinin formalaşmasına mənfi təsir göstərə, eyni zamanda ucqar kəndlərin boşalmasına aparıb çıxara bilər"



***Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, deputat Ceyhun Məmmədov "Unikal"a müsahibə verib. O, xərclərin optimallaşdırılması baxımından bəzi məktəblərin birləşdirilməsindən, universitetlərin tədqiqatyönlü fəaliyyətinin gücləndirilməsi üçün ayrılan vəsaitin, dini təhlükəsizlik məsələsindən və elmi adlara görə ayrılan vəsaitin artırılmasından danışıb.***

***-Ceyhun müəllim, xərclərin optimallaşdırılması baxımından bəzi məktəblərin birləşdirilməsi məsələsini siz də qeyd etmisiz. Yəqin ki, bu proses regionları əhatə edəcək. Bu addım rayonlarda yaşayanlara necə təsir edəcək?***

-Həm Milli Məclisin birgə komitələrinin iclasında səsləndirilən fikirlərdən, həm də nazirliyin dünən verdiyi açıqlamadan bir daha aydın olur ki, Azərbaycanda bir sıra məktəblər artıq bağlanıb və bu proses davam edəcək. Rəsmi açıqlamaya görə, ölkədə bu cür 1500 məktəb var. Mənim dediyim ondan ibarətdir ki, bu addım bölgələrdə gənclərin savadlılığına, dünyagörüşünün və intellektual səviyyəsinin formalaşmasına mənfi təsir göstərə, eyni zamanda ucqar kəndlərin boşalmasına aparıb çıxara bilər. Düşünürəm qərar qəbul edilərkən bu kimi məsələlər ciddi nəzərə alınmalıdır.

***-Siz də parlamentdə çıxışınızda universitetlərin tədqiqatyönlü fəaliyyətinin, maddi-texniki bazalarının gücləndirilməsi üçün ayrılan vəsaitin artırılmasını təklif etdiniz. Bir sıra xarici ölkələrdə çox böyük büdcəyə sahib olan universitetlərin olduğu məlumdur. Ölkəmizdə də ali təhsil müəssisələrinin bu istiqamətdə inkişafı üçün hansı addımlar atılmalıdır?***

-Heç şübhəsiz ki, universitetlər özləri də maraqlı olmalıdırlar ki, maddi-texniki bazalarını gücləndirsinlər. Burada söhbət o qədər də geniş imkanı olmayan universitetlərin maddi-texniki bazasından gedir. Bəzi universitetlərdə bu istiqamətdə işlər görülür. Bu istiqamətdə işlərin sürətləndirilməsinə ehtiyac var. Eyni zamanda bu işləri görmək üçün dövlətin dəstəyi də önəmlidir. Biz xarici universitetlərlə rəqabətdə uduzmamağa çalışmalıyıq.

***-Deputat həmkarlarınızdan dini təhlükəsizliyimizlə bağlı çox ciddi narahatlıqların olduğu qeyd edildi. Bu baxımdan, dini təhsilə daha çox vəsait ayrılmasının təmin edilməli olduğu bildirildi. Sizcə, bu sahədə hansı işlər görülməlidir?***

-Dini təhlükəsizlik məsələsi hər zaman həm Azərbaycanda, həm də dünyada aktualdır. Müəyyən qüvvələr hər zaman din amilindən istifadə edərək ölkəmizin təhlükəsizliyini təhdid etməyə çalışıblar. Biz hər zaman ayıq-sayıq olmalıyıq. Bu istiqamətdə müəyyən addımlar atılır. Ancaq düşünürəm ki, bu sahəyə diqqət daha da artırılmalıdır.

***-Siz də elmi adlara görə ayrılan vəsaitin artırılmasını təklif etdiniz. Elm və təhsil naziri Emin Əmrullayev dünyada elmi ada görə adama pul verilmədiyini bildirib. Nazir bu istiqamətdə başqa addımlar atıldığını vurğulayıb. Bunun üçün sizin hansı təklifləriniz var?***

-Bu gün ölkəmizdə elmi adlara görə 60 və 100 manat ödəniş edilir. Əgər yeni sistemə keçəcəyiksə, bunu sürətləndirməliyik. Əvvəlki sistemdə qalacağıqsa, alimlərin maaşlarının artırılması və əlavələrin olunması məsələsinə baxmalıyıq. Elmimizin inkişaf etməsini, bu istiqamətdə uğurlara nail olmaq istəyiriksə, o zaman bu sahənin inkişafına çalışmalıyıq. Bu gün elm sahəsinə gələn insanların sayı getdikcə azalır. Bu gələcəkdə özünü daha açıq formada göstərəcək. Çalışmalıyıq ki, bu sahədə fəaliyyət göstərən insanların maddi vəziyyətinin yaxşılaşdırılması istiqamətində addımlar ataq. Əks halda gələcəkdə müəllim tapmaqda çətinlik çəkəcəyik.

***Anar Kəlbiyev***

## Sahibkarları şantaj etməkdə ittiham olunan 4 sayt rəhbəri həbs edildi



***Paytaxtın və respublikanın ayrı-ayrı rayonlarında kiçik və orta sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər barəsində rüsvayedici məlumatlar yayacağı hədəsi ilə onların pul vəsaitlərini hədə-qorxu ilə ələ keçirən bir neçə sayt rəhbəri polis əməkdaşları tərəfindən cinayət məsuliyyətinə cəlb edilib.***

"Unikal" xəbər verir ki, DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə (BMCMİ) daxil olan çoxsaylı şikayətlər əsasında "Aztvnews.az" saytının baş direktoru Seymur Məmmədov, "Qaynarxett.az" saytının baş direktoru Zaur Əhmədov, "Postbaku.net" xəbər saytının baş direktoru Eldəniz Mejdunov, "Aja.az" saytının baş direktoru Elvin Qurbanov müəyyən olunaraq saxlanılıblar. Araşdırmalarla müəyyən edilib ki, onlar qabaqcadan əlbir olan bir qrup şəxs halında zərərçəkmiş şəxslərin barələrində işgüzar nüfuzlarına təsir göstərən videoreportaj hazırlayıb mediada yaymaqla hədələyib müxtəlif məbləğlərdə pul vəsaitləri tələb ediblər.

Faktla bağlı BMCMİ-nin İstintaq İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanan cinayət işi üzrə əvvəllər məhkum olunan S.Məmmədova 32, Z.Əhmədova 24. E.Mejdunova 7, əvvəllər məhkum olunan E.Qurbanova 10 fakt üzrə ittiham elan edilməklə barələrində həbs qətimkan tədbiri seçilib. İstintaqı tamamlanan cinayət işi aidiyyəti üzrə məhkəməyə göndərilib.

Məlumatı DİN-in Mətbuat Xidmətindən təsdiqləyiblər.

42_27 IYUl-QARA.qxd 11/28/2024 10:59 PM Page 8



# Sahil Babayevin absurd məntiqi

## Həftənin sualı: sadə vətəndaş da, deputat da haqsız danışır, düz deyən isə yalnız əmək və əhalinin sosial müdafiəsi nazirinin özüdür?

***Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Milli Məclisdə tənqid hədəfinə çevrilib. Belə ki, deputat Siyavuş Novruzov yola salmaq üzrə olduğumuz həftə Milli Məclisin plenar iclasında müzakirəyə çıxarılan “Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında” Azərbaycan Respublikası qanununun layihəsinə münasibət bildirərkən Babayevin rəhbəri olduğu nazirliyin fəaliyyətindəki çatışmazlıqlara diqqət çəkib.***



“Özünüməşğulluq proqramı ilə kəndçiyə iki ədəd inək verirlər, o da qapıdan girəndən üç gün sonra ölür” deyən Babayev özünüməşğulluqla bağlı proqramı müsbət qiymətləndirsə də nöqsanları sıralayıb: ”Amma proqramın həyata keçirilməsi mexanizmində problemlər var. Başqa sahələri deyə bilmərəm, lakin kənd təsərrüfatı ilə bağlı şikayətlər çoxdur. Xəstə mal-heyvanları insanlara verirlər, o da qapıdan girəndən üç gün sonra ölür. Onların da bir dəfə almaq şansı var. Kəndçiyə iki inək verirsinizsə, ona bir illik qarantiya da verin. Heç olmasa üç aylıq da onun yeməyini verin. Çünki kəndçi onu ehtiyacdan alır”.

S. Novruzov qeyd edib ki, eyni zamanda müharibə veteranları ilə bağlı müraciətlər olur: “Onlar əlilliklə bağlı təyinatı almaq üçün müraciət edirlər. Ola bilər, hansısa kompüter, aparat onu göstərə bilmir. Əgər qucağında silahla kazarmada yatmamısansa, bunu dərk edə bilməzsən. 5 dil bilə bilərsən, amma yanında döyüş yoldaşının ölməsi ilə keçirilən psixoloji sarsıntını heç kəs bilə bilməz”.

Nazir Sahil Babayev isə deputata cavabında yenə də ümumi, mücərrəd fikirlər səsləndirməklə kifayətlənib. Bildirib ki, elektron şəkildə hər bir şəhid ailəsinə aid olan imtiyazlar var: “Bununla bağlı bukletlər də çap olunub. Təqdim olunan heyvanlarla bağlı araşdırılmamış məlumatlar verilməsin. Həmin heyvanlarla bağlı AQTA-nın xəstəlik, sağlamlıq arayışları orada olur. Araşdırmamış heç kim heç nə deməsin”.

Nazirin cavabındakı son cümlə ümumiyyətlə təəccüb doğurur. Əvvəla, internet üzərindən kiçik bir axtarış kifayətdir ki, Siyavuş Novruzovun özünüməşğulluq proqramının icrası ilə bağlı sadaladığı nöqsanların nə qədər ciddi və doğru olduğunu görəsən. Son illərdə, üstəlik, dəfələrlə özünüməşğulluq proqramı çərçivəsində verilən heyvanların arıq, xəstə olması, ölməsi barədə görüntülər, məlumatlar yayılıb. Uzağa getməyək, təzəlikcə məlum oldu ki, Bərdə rayon sakini Ağayev İmamquluya iyulun 25-də Dövlət Məşğulluq Agentliyi tərəfindən 21 baş qoyun verilib. Sakinin iddialarına görə, heyvanların bir neçəsi xəstələnərək tələf olub.

Bundan əvvəl isə Xaçmaz rayonunun Hacıqazma kənd sakini Ələddin Talıbov çətin duruma düşmüşdü: belə ki, onun özünüməşğulluq proqramına qoşulmaq üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyinə müraciətindən 4 il sonra (bəli, bəli, düz 4 il sonra!) ona 21 baş qoyun verilib. Kənd sakininin qara günləri də elə bundan sonra başlayıb. Ələddin Talıbova verilən qoyunlardan 5-i alandan 12 gün sonra tələf olub. Sitat: ”Şərtlərə görə, qoyunların artımı üçün verilən qoç 2-4 yaşında olmalıdır, mənə verilən qoç isə quzu idi. Onunla necə artım olacaqdı ki? Üstəlik, həmin quzu da öldü, indi heç artım olmayacaq, həm də qalan qoyunlar da sağlam deyil, xəstədir”.

Bu cür vəziyyətlə üzləşən vətəndaşları ən çox narahat edən məsələlərdən biri isə onların aidiyyatı qurumlara dəfələrlə yazılı müraciət ünvanlamasına baxmayaraq, heç bir nəticə əldə etməmələridir.

İkincisi, hələ sentyabrda deputat Fazil Mustafa da bildirmişdi ki, özünüməşğulluq proqramı çərçivəsində vətəndaşlara verilən aktivlərdən şikayətlərə çox rast gəlinir, bu, birinci hal deyil: ”Mən bu formada məşğulluğun effektli olacağı düşüncəsində deyiləm. İş yerlərinin açılması daha yaxşı olardı. Biz işsizliyin həlli yollarını tapmalıyıq. Özəl sektora güvənməliyik ki, yeni iş yerləri açsınlar. Özünüməşğulluq proqramına xələl gətirən, dövlət siyasətinə etinasızlıq yaradan məmurlarla bağlı isə ölçü götürülməlidir”.

Ötən il isə başqa bir deputat - Razi Nurullayev demişdi ki, indiyədək Dövlət Məşğulluq Agentliyindən razı qalan vətəndaşa rast gəlməyib. Sitat: ”İnsanlara mal-heyvan paylanıldı, müəyyən avadanlıqlar verildi, məşğulluq üçün şərait yaradıldı. Amma bütün bunların 100-dən 90-ı özünü doğrultmur”.

Bütün bunlardan sonra belə çıxır ki, ölkədə sadə vətəndaşdan deputatadək hamı araşdırmadan, haqsız danışır, bircə Sahil Babayevdən başqa! Absurd deyilmi? Əlbəttə, absurddur. Ən əsası isə belə bir mənzərə yaranır ki, əmək və əhalinin sosial müdafiəsi nazirinin ya məsul olduğu sahədə illərdən bəridir davam edən nöqsanlardan xəbəri yoxdur, ya da xəbəri var, sadəcə həmin nöqsanların dilə gətirilməsini istəmir, belə düşünür ki, hansısa problem barədə danışılmasa, deməli həmin problem yoxdur, mövcud deyil! Tipik sovet yanaşmasıdır, halbuki belə bir yanaşma nümayiş etdirən nazirə indi tutduğu posta təyin edilərkən müasir görüşlü, yenilikçi olması səbəbindən böyük ümidlər vardı. Lakin təəssüf ki, gün keçdikcə həmin ümidlər bir az da ölür...

***Toğrul Əliyev***

# Polşanın Azərbaycandakı müvəqqəti işlər vəkili XİN-ə çağırıldı



***Polşanın Azərbaycandakı müvəqqəti işlər vəkili Mixal Qreçilo Xarici İşlər Nazirliyinə çağırılıb.***

“Unikal” xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb. Məlumata görə, görüş zamanı Azərbaycan tərəfinin xəbərdarlıqlarına baxmayaraq, Polşa Prezidenti Anjey Dudanın Ermənistan-Azərbaycan sərhəd bölgəsinə, hələ də Ermənistanın işğalı altında olan Kərki kəndinə yaxın əraziyə səfər edərək, Avropa İttifaqının Ermənistandakı Missiyası ilə birgə Azərbaycan əleyhinə təbliğatda iştirakına etiraz bildirilib.

Sözügedən missiyanın regional sabitlik, habelə Azərbaycanla Ermənistan arasında etimad quruculuğuna töhfə vermək kimi bəyan edilmiş məqsədlərinə zidd olaraq Azərbaycan əleyhinə alət kimi geniş şəkildə sui-istifadə olunduğu xatırlanıb.

Həmçinin bu təxribatın Azərbaycan-Polşa münasibətlərinə zidd olduğu, Azərbaycanın legitim təhlükəsizlik maraqlarına təsir edən bu kimi addımlardan çəkinməyin zəruri olduğu diqqətə çatdırılıb.

# “Nə qədər faktlar ortaya çıxdı ki, əlillik təyinatında saxtakarlıqlar var” - Komitə sədri



***”Ünvanlı sosial yardım layihəsi dünyanın heç bir yerində ömürlük mərhələ deyil. Bu, keçid layihədir. Milyonlarla vətəndaşımız neçə illər bu layihədən bəhrələndi. Bu layihənin ən təhlükəli bir cəhəti insanların əməkdən aralanması və ələbaxım öyrənməsidir”.***

”Unikal” xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin bu gün keçirilən iclasında komitə sədri, deputat Musa Quliyev deyib.

”Nə qədər faktlar ortaya çıxdı ki, burada saxtakarlıqlar olub, saxta sənədlər təqdim edilıb. Əlillik dərəcəsi sırf həkim ekspertlərin qiymətləndirdiyi məsələdir. Bunun nə qədər çətin və məsuliyyətli iş olduğunu bilirəm. Bu gün o sahədən başı çıxmayan, ümumiyyətlə xəbəri olmayan, həkimlik təhsili almayan adam deyir ki, kiməsə ömürlük əlillik vermək lazımdır və s. Bu qeyri-peşəkar yanaşmadır. Veteranlarla bağlı bilən də, bilməyən də danışdı. Bu bir müavinət, pensiya, sosial yardım növü deyil. Bu Prezidentin təsis etdiyi təqaüddür. Prezident təqaüdünün Milli Məclisdə və digər aidiyyəti orqanlarda müzakirə olunması siyasi etikaya uyğun məsələ deyil”, - deyə komitə sədri bildirib.

***Anar Kəlbiyev***

# Ağdam Sənaye Parkında ilk məhsul ixracına başlanılıb

***Ağdam Sənaye Parkının rezidenti Gürcüstana divar kağızları ixrac etməyə başlayıb.***

Bu barədə “Unikal”a İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinə (İZİA) istinadən xəbər verir.

Məlumata görə, Agentliyin idarəçiliyində olan Ağdam Sənaye Parkında ilk dəfə məhsul ixracına başlanılıb. Sənaye Parkının rezidenti “Mister Decor” MMC tərəfindən Gürcüstana divar kağızları ixrac edilib. Hazırda şirkət tərəfindən digər ölkələrə məhsul ixracı ilə bağlı danışıqlar aparılır.

Qeyd edək ki, Ağdam Sənaye Parkında ümumi investisiyalarının həcmi 260 milyon manat olan 28 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Sahibkarlıq subyektləri tərəfindən Sənaye Parkında ümumilikdə, 2 300-ə yaxın iş yerinin yaradılması nəzərdə tutulur. Bu günədək Sənaye Parkında görülmüş işlərə sahibkarlar tərəfindən 92 milyon manatdan çox investisiya yatırılıb, 370-dən artıq daimi iş yeri yaradılıb. Hazırda Ağdam Sənaye Parkında 9 müəssisə fəaliyyət göstərir.

## Narkotiklərlə Mübarizə İdarəsindən əməliyyat: Saxlanılanlar var

***Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin satışı və qanunsuz dövriyyəsinin qarşısının alınması məqsədilə paytaxt və bölgələrdə əməliyyat tədbirləri davam etdirilir.***

"Unikal" xəbər verir ki, sonuncu əməliyyatlar zamanı mütəşəkkil dəstənin daha bir neçə üzvü - əvvəllər məhkum olunmuşlar 45 yaşlı Bəxtiyar Fətullayev, 32 yaşlı Kənan Məmmədov, həmçinin 35 yaşlı Rövşən Cəfərov və 44 yaşlı Nazim Qələndərov saxlanılıblar. Onların üzərindən, avtomobillərindən və yaşadıqları evlərdən ümumilikdə 40 kiloqram heroin, tərkibi psixotrop maddələrlə zənginləşdirilmiş marixuana, metamfetamin və 400 ədəd metadon həbi aşkarlanıb.

Saxlanılan şəxslər narkotik vasitələri şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşları vasitəsilə Masallı və Siyəzən rayonları, eləcə də paytaxt ərazisində müxtəlif ünvanlardan əvvəlcədən müəyyənləşdirilmiş yerlərdən götürərək maddi qazanc müqabilində ayrı-ayrı ünvanlara çatdırmağı planlaşdırıblar.

Saxlanılanların hər biri ölkədə narkotik vasitələrin əsas tədarükçülərindən olublar.

Faktlarla bağlı cinayət işləri başlanılıb, saxlanılan şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbirləri seçilib.

Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri fasiləsiz olaraq davam etdirilir.

## Azərbaycanda işsizlik neçə faizdir? - Açıqlama

***"İşsizliklə bağlı söhbət qaldırıldı. Azərbaycanda rəsmi işsizlik 6%-dən yuxarı deyil".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin bu gün keçirilən iclasında komitə sədri, deputat Musa Quliyev deyib.

Komitə sədrinin sözlərinə görə, ola bilsin ki, bu göstərici pandemiya dövründə bir qədər yüksəlmişdi, amma hazırda 5-6% arasında dəyişir: "Bu, dünyada yaxşı göstəricilərdən sayılır. Amma bizim də seçicilərimiz bu barədə bizə müraciət edir. Biz də məşğulluq xidməti ilə əlaqə saxlayırıq, iş yerləri var, heç vaxt demirlər ki iş yeri yoxdur. O iş yerinə ya həmin ixtisas uyğun gəlmir, ya maaş vətəndaşı qanı etmir, ya da başqa səbəblər olur. Kənd yerində böyük bir sənaye obyekti qurmayacaqsan ki? Fermer təsərrüfatı, bağı, bostanı, mal-heyvanı var. Kəndin ənənəvi məşğulluq sahəsi budur. Təzədən orada onun arzu etdiyi iş yerini açmaq heç bir ölkənin siyasətində yoxdur. Buna görə də iş yerləri ilə bağlı vətəndaşlarımızı maarifləndirmək lazımdır".

***Anar Kəlbiyev***

## Nazirlik əhaliyə dəm qazı ilə bağlı müraciət etdi

***Fövqəladə Hallar Nazirliyinin dəm qazı təhlükəsi ilə əlaqədar əhaliyə müraciət edib.***

Bu barədə "Unikal"a nazirlikdən məlumat verilib. Müraciətdə bildirilib ki, havaların soyuması məişətdə dəm qazı təhlükəsini daha da artırır:

"İstiliyə tələbatın artdığı bu mövsümdə qaz cihazlarından istifadə zamanı təhlükəsizlik qaydalarına əməl edilməməsi sonda acı nəticələrə səbəb ola bilər. Bu istiqamətdə Fövqəladə Hallar Nazirliyinin apardığı kütləvi maarifləndirmə işlərinə baxmayaraq, təəssüflə qeyd edilməlidir ki, hələ də dəm qazının törətdiyi faciəli hadisələr baş verir.

Yuxarıda qeyd olunanları, habelə dəm qazının iysiz olduğunu və hiss edilmədiyini nəzərə alaraq, mümkün fəsadların qarşısının alınması üçün Fövqəladə Hallar Nazirliyi aşağıda göstərilən təhlükəsizlik qaydalarına əməl olunmasının zəruriliyini bir daha xatırladır:

- istismar olunan qaz cihazı saz və standartlara uyğun olmalı;
- cihaz olan məkanın hündürlüyü 2 metr 20 santimetrdən az olmamalı;
- havaçəkən sistem işləməli, nəfəslik açıq olmalı;
- hamam otağında ventilyasiya borusu, qapının aşağısında dəliklər olmalı;
- tüstü bacaları ildə iki dəfə təmizlənməlidir.

Yadda saxlamaq lazımdır ki, qaz cihazının olduğu məkandakı insanlarda baş ağrısı, baş gicəllənməsi, ürək bulanması, halsızlıq dəm qazından zəhərlənmənin əsas əlamətləridir.

Dəm qazından zəhərlənmə baş verdikdə dərhal zərərçəkmişi təmiz havaya çıxarıb, nəfəsalmasını çətinləşdirən geyimlərdən azad etmək, təcili tibbi yardım çağırmaq lazımdır!".

# İki ildir sədr əvəzi olan İlham Mirzəliyevə bəd xəbər

## "Azəristiliktəchizat"ın müvəqqəti rəhbəri vəzifəsindən niyə uzaqlaşdırılır?

***"Azəristiliktəchizat" Açıq Səhimdar Cəmiyyətinin (ASC) sədr əvəzi yaxın vaxtlarda vəzifəsindən azad ediləcək. Qaynarinfonun etibarlı mənbədən əldə etdiyi məlumata görə, 2005-ci ildə yaradılan "Azəristiliktəchizat" ASC-nin yeni formatda fəaliyyəti ilə bağlı iş aparılır.***

Artıq ASC-nin yenidən formalaşdırılması ilə bağlı aidiyyatı qurumlara müraciət edilib. Bir neçə qurumun da bura birləşdiriləcəyi istisna olunmur.

Yenidən formalaşdırılacaq qurumda 07.02.2022-ci ildən "Azəristiliktəchizat"da sədr əvəzi olan Mirzəliyev İlham Ata oğlu yer almayacaq.

Bir neçə aya 65 yaşı tamam olacaq İlham Mirzəliyev son yaş həddi ilə əlaqədar təqaüdə göndəriləcək.



Qeyd edək ki, İlham Mirzəliyev həmçinin 2005-ci ildən "Azəristiliktəchizat" ASC-nin sədr müavini vəzifəsini tutur.

Xatırladaq ki, adı çəkilən quruma uzun illər Yaşar Həsənov rəhbərlik edib. Onun dövründə bu ASC dövlətdən külli miqdarda dotasiya almasına baxmayaraq ilbəil zərər edib, onun iri məbləğdə borcları yaranıb, hətta "Azəriqaz"a yığılan borclar səbəbilə son illərdə evlərin istiliklə təmin edilməsi yubanıb, bu isə kütləvi narazılıqlara gətirib çıxarıb. Bundan başqa, qurumda korrupsiyanın dərin kök salmasına dair iddialar və ittihamların ardı-arası kəsilməyib. Nəticədə ötən ilin fevralında Y.Həsənov vəzifəsindən azad olunub.

Həmin vaxtdan indiyədək "Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti olaraq İlham Mirzəliyev icra edir. Lakin bu səhmdar cəmiyyətlə bağlı şikayətlərin səngiməməsi orada köhnə rəhbərlikdən qalan yanlış idarəetmə prinsiplərinin hələ də işlədiyi təəssüratını yaradır. Bir müddət öncə "Azəristiliktəchizat"ın vergi borcu olan şirkəti böyük məbləğli tenderin qalibi elan etməsi də eyni qəbildən qiymətləndirilirdi. Belə ki, mətbuat sözügedən ASC-nin "Xüsusi texnika və nəqliyyat vasitələri üçün ehtiyat hissələrinin satın alınması" ilə bağlı elan etdiyi tender başa çatdığını yazmışdı. Tenderin qalibi kimi isə nizamnamə kapitalı 20 AZN, qanuni təmsilçisi Temur Əkrəm oğlu Müslümov olan "Avto Texnika Detaling" seçilmişdi. Tərəflər arasında 788.948 AZN-lik müqaviləyə imza atılmışdı. Lakin 32gun.az-ın məlumatına görə, qalib şirkətin dövlətə vergi borcu mövcuddur. Belə ki, sözügedən MMC-nin tender keçirildiyi dönəmdə vergi borcu 4509.21 AZN təşkil edirdi. Halbuki, "Dövlət satınalmaları haqqında" Qanun vergi borcu olan şirkətlərin, şəxsin tenderdə iştirakını qadağan edir.

Yada salmaq yerinə düşür ki, Yaşar Həsənovun zamanında da "Azəristiliktəchizat"ın tenderləri ilə bağlı bir çox müəmmalar dolaşırdı. Məsələn, qurum qazanxana və istilik şəbəkələrinin istismarı üçün layihə üzrə müəyyən edilmiş müxtəlif markalı nasos, mühərriklərin satınalması üzrə 43 660 manat məbləğində satınalma müqaviləsini 18.11.2021-ci il tarixdə "Tikinti bərpa firması" MMC ilə bağlamışdı. Lakin həmin vaxt şirkətin udduğu məbləğdən az qala 3 dəfə çox - 124 297.28 manat vergi borcu olduğu aydınlaşmışdı...

Bir sözlə, İ.Mirzəliyevin sədr əvəzi olaraq çalışdığı 2 il boyunca "Azəristiliktəchizat"da müsbət dəyişikliklərin baş verdiyini söyləmək çətindir. Ən çox təəssüf doğuran məqam isə adı çəkilən qurumun hələ də zərərlə işləməyə davam etməsidir. Məsələn, qurum 2023-cü ildə 9,7 milyon manatlıq zərər edib ki, bu da 2022-ci illə müqayisədə 18,1% çoxdur. Digər tərəfdən ötən il səhmdar cəmiyyətin yığılmış zərəri 9% artaraq 118,2 milyon manata çatıb və bu, Yaşar Həsənovun rəhbərlik etdiyi dövrlə müqayisədə xeyli çoxdur. Həmçinin qurumun borc öhdəlikləri, qısamüddətli və uzunmüddətli öhdəlikləri, ticarət və digər kreditor borcları artıb.

Bir sözlə, keçmiş sədrin vəzifəsindən uzaqlaşdırılması və İlham Mirzəliyevin 2 illik sədr əvəzliyi də "Azəristiliktəchizat"ı düşdüyü çətin durumdan qurtulmasına kömək etməyib. Bu səbəbdən Mirzəliyevin vəzifədən uzaqlaşdırılacağı barədə xəbərlərin yayılması sürpriz deyil. Sadəcə məsələni yalnız yaş həddi ilə izah etmək düzgün olmazdı. Yuxarıda sadalananlardan da göründüyü kimi, İlham müəllim 2 il boyunca gözləntiləri doğrultmayıb və vəzifədən kənarlaşdırılacaqsa, əsas səbəbi də məhz bunda axtarmaq lazım gələcək...

Qeyd edək ki, "Azəristiliktəchizat" dövlət başçısının "İstilik təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 8 iyun 2005-ci il tarixli sərəncamı əsasında yaradılıb. Səhmdar cəmiyyəti Bakıda və regionlarda yaşayış evlərini və binaları, təhsil, səhiyyə müəssisələrini və digər sosial təyinatlı obyektləri istiliklə təchiz edir. Bu qurumun yarandığı tarixdən 2022-ci ilədək rəhbəri yuxarıda da adını çəkdiyimiz Yaşar Həsənov olub. O, Bakının sabiq meri Hacıbala Abutalıbovun yaxın kadrı sayılırdı.

***Toğrul Əliyev***

# Şərurlu İsfəndiyarın başı qalmaqallardan açılmır

## İflasın ayaq səsləri: tikinti maqnatına qarşı iddialar pik həddə çatıb

***Ölkənin aparıcı tikinti maqnatlarından biri kimi ad çıxaran və "Şərurlu İsfəndiyar" kimi tanınan iş adamı İsfəndiyar Axundova məxsus "Şərur" Mənzil-Tikinti Kooperativi (MTK) məhkəməyə verilib.***

İddiaçı Vəliyeva Sevda Dadaş qızı adlı vətəndaşdır. Məhkəmə çəkişməsi müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələrlə bağlıdır (qaynarinfo).

Daha dəqiq desək, adı çəkilən MTK-nın məhkəməyə verilməsinə səbəb kooperativin öhdəliyində olan mənzili təhvil verməməsi olub. Belə ki, əvvəlcə şirkət Sevda Vəliyeva adlı vətəndaşın lazımi ödənişi etməməsi səbəbi ilə məhkəməyə müraciət edib. Bundan sonra Sevda Vəliyeva ödənişi tam etsə də, mənzil ona təhvil verilməyib.



Vətəndaş daha sonra Nərimanov rayon Məhkəməsinə müraciət edib.İşə hakim Mehriban Əfəndizadənin sədrliyi ilə baxılacaq (modern.az).

Bildirildiyinə görə, Sevda Vəliyeva Yasamal rayonunda yerləşən 184 saylı uşaq bağçasının müdiridir.

Sentyabrda isə İsfəndiyar Axundovun "Şərur" MTK-sı başqa bir vətəndaş - Alhüseynova Nigar Sahib qızı tərəfindən məhkəməyə verilmişdi. Həmin məhkəmə çəkişməsi də müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələrlə bağlı idi.

"Şərur" MTK Bakıda hündürmərtəbəli yaşayış binaları inşa edir. Həm şirkət, həm də onun sahibi İsfəndiyar Axundov dəfələrlə müxtəlif qalmaqallarla gündəmə gəlib. Həmçinin dəfələrlə ayrı-ayrı vətəndaşlar tərəfindən məhkəməyə verilib.Məsələn, bu yaxınlarda I dərəcəli ədliyyə qulluqçusu, Ədliyyə Akademiyasının baş məsləhətçisi Nuridə Əlizadə "Şaiq" Mənzil-Tikinti Kooperativinin (MTK) əməllərindən məhkəməyə üz tutmalı olub. Yaranan məhkəmə çəkişməsi podrat müqaviləsi üzrə mübahisələrlə bağlıdır. İşin təfərrüatları barədə açıq mənbələrdə heç bir məlumat yoxdur.

Nuridə Əlizadənin iddiasına Yasamal Rayon Məhkəməsində baxılacaq. İş hakim Gülnar Babazadənin icraatındadır.

Qeyd edək ki, "Şaiq" MTK 8 sentyabr 2003-cü ildə qeydiyyata alınıb. Şirkətin qanuni təmsilçisi Dadaşzadə Nicar Sura oğludur. "Şaiq" MTK-nın da məhz Şərurlu İsfəndiyara məxsus olduğu bildirilir. Belə ki, onun qardaşı oğlu Məhəmməd Axundovun 2011-2022-ci illərdə şirkətə rəhbərlik etməsi bu iddiaların əsassız olmadığına dair ehtimalları artırır.

Yeri gəlmişkən, "Şaiq" MTK ötən il Binəqədi rayonu, Cavadxan küçəsində yerləşən çoxmərtəbəli yaşayış binasında baş verən partlayışla gündəmə gəlmişdi. Həmin vaxt sakinlər də binanın məxsus olduğu "Şaiq" MTK-nın sahibi kimi İsfəndiyar Axundovun adını çəkmişdilər.

Məlumat üçün deyək ki, sözügedən hadisə nəticəsində 1 nəfərin öldüyü, 3 nəfərin isə xəsarət aldığı barədə məlumatlar yayılmışdı.

İyulda bu dəfə "Şərur" MTK ətrafında skandal ortaya çıxmışdı. Məlum olmuşdu ki, şirkət barəsində Ətraf Mühitin Mühafizəsi, Təbiətdən İstifadə və Ekoloji Təhlükəsizlik qaydaları əleyhinə olan (Ətraf mühitə atılan, axıdılan və ya basdırılan zərərli maddələrin miqdarının, habelə zərərli fiziki təsirlərin hədlərinin yol verilə bilən normativlərdən artıq olması) inzibati xəta protokolu tərtib olunub.

Protokol İnzibati Xətalar Məcəlləsinin 233.1-ci maddəsi ilə irəli sürülmüşdü. Həmin maddəyə əsasən, ətraf mühitə atılan, axıdılan və ya basdırılan zərərli maddələrin miqdarının yol verilə bilən normativlərdən artıq olmasına görə vəzifəli şəxslər üçün 2500 manatdan 4000 manatadək, hüquqi şəxslər üçün isə 10500 manatdan 12500 manatadək məbləğdə cərimə nəzərdə tutulub.

Ötən ay isə Şərurlu İsfəndiyara məxsus "Şərur" Mənzil-Tikinti Kooperativi növbəti dəfə inzibati məsuliyyətə cəlb edilmişdi. Şirkətə qarşı İnzibati Xətalar Məcəlləsinin 266.2-ci maddəsi ilə ittiham irəli sürülmüşdü. Bu maddə tullantıların emalı yerlərinin müəyyənləşdirilməsi, layihələşdirilməsi, tikintisi, istifadəsi və ya ləğv edilməsi normalarının və qaydalarının pozulması ilə bağlıdır.

Maddədə inzibati cəza növü kimi vəzifəli şəxslərin 3 500 manatdan 4 500 manatadək, hüquqi şəxslər isə 10 000 manatdan 15 000 manatadək məbləğdə cərimə edilir.

Bundan başqa, aylar öncə Mərkəzi Bankın da Şərurlu İsfəndiyarı məhkəməyə verdiyi məlum olmuşdu. Belə ki, ölkənin baş bankı "Çinar-Araz Firması" MMC və Axundov İsfəndiyar Məhəmməd oğlu ilə bağlı məhkəməyə üz tutmuşdu. Həmin vaxt bildirilirdi ki, məhkəmədə maraqlı şəxs qismində Əmanətlərin Sığortalanması Fondu iştirak edir. Məhkəmə işinin mahiyyəti isə müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr - ipoteka müqaviləsi üzrə mübahisələr idi.

Bir sözlə, ölkənin aparıcı tikinti maqnatlarından biri kimi ad çıxaran Şərurlu İsfəndiyarla bağlı son bir ildə xəbərlərin məzmunu ya onun tikdiyi hansısa binada xoşagəlməz hadisənin yaşanması, ya da şirkətlərinin ən müxtəlif məsələlərlə (əmək qanunvericiliyinin pozulması, müqavilələrdən əmələ gələn öhdəliklərin yerinə yetirilməməsi, ipoteka müqaviləsi üzrə mübahisələr, ətraf mühitin çirkləndirilməsi...) bağlı məhkəmələrə verilməsi ilə bağlıdır.

Əgər belə davam edərsə, iş adamının iflası qaçılmaza çevrilə bilər. İstənilən halda bir maqnatın adı ətrafında az qala hər ay hansısa skandalın baş verməsi normal deyil...

***Sənan Mirzə***

# "Bundan böyük sosial rifah göstəricisi təsəvvür etmirəm" - Nazir müavini



***"Bu gün biz tam əminliklə deyə bilərik ki, ölkədə əməkhaqqı fondu üç dəfəyədək artıb. Yəni, bundan böyük sosial rifah göstəricisi təsəvvür edə bilmirəm. Orta aylıq əməkhaqqında 82 faiz artımlar əldə olunub. Sosial ödənişlərlə bağlı islahatlarımız ardıcıl xarakter daşıyır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev deyib.

Nazir müavini bildirib ki, əmək pensiyaları sahəsində də geniş islahatlarımız olub: "Bu islahatlar həm pensiyaların məbləğlərinin, yəni, minimum pensiya məbləğinin, orta pensiya məbləğinin artırılmasına yönələn islahatlar olub. Eyni zamanda burada inzibatçılığın təkmilləşdirilməsinə yönələn islahatlar olub. Pensiya sisteminin, sığorta pensiya sisteminin əhatə dairəsinin böyüməsinə yönələn islahatlar olub. Ötən müddət ərzində ünvanlı dövlət sosial yardımın orta məbləği 2,7 dəfə artıb və bu proqramın həyata keçirilməsinə büdcədə artımla vəsait nəzərdə tutulub".

***Anar Kəlbiyev***

# Məktəbdənkənar təhsil müəssisələrinə elektron qəbul başladı



***Ötən gün saat 11:00-dan etibarən şagirdlərin məktəbdənkənar təhsil müəssisələrinə elektron qəbulu prosesinə start verilib.***

Elm və Təhsil Nazirliyindən "Unikal"a verilən xəbərə görə, idman və yaradıcılıq sahələri üzrə dərnək və qruplara elektron qəbul prosesi valideynlər tərəfindən portal.edu.az saytı vasitəsilə aparılır.

Qeyd edək ki, elektron qəbul ilk olaraq 20 məktəbdənkənar təhsil müəssisəsində pilot olaraq həyata keçirilir.

# Baş prokuror Sumqayıtda vətəndaşları qəbul edəcək

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Kamran Əliyev cari il dekabrın 6-da, saat 10:00-da Sumqayıt şəhər prokurorluğunun inzibati binasında Sumqayıt şəhər və Qubadlı rayon sakinlərinin qəbulunu keçirəcək.***

Baş Prokurorluğun Mətbuat xidmətindən "Unikal"a bildirilib ki, vətəndaşların qəbulla bağlı qeydiyyatı aidiyyəti prokurorluqlar tərəfindən həyata keçiriləcək.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon (şəhər) prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin (012) 361-14-07 nömrəli telefonu, contact@prosecutor.gov.az elektron poçt ünvanı, həmçinin prokurorluğun sosial şəbəkələrdəki səhifələri (İnstagram, Facebook və X) vasitəsilə də qəbula yazıla bilərlər.

# Ucarda kənd təsərrüfatı statistikası

***2024-cü ilin yanvar-sentyabr aylarında kənd təsərrüfatının ümumi məhsulu 243851,3 min manat olmuşdur. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 14,9 faiz çox olmuşdur.***

Məhsul buraxılışının 56182,8 min manatını və ya 23,0 faizini bitkiçilik məhsulları, 187668,5 min manatını və ya 77,0 faizini heyvandarlıq məhsulları təşkil edir

***Ucar Rayon Statistika İdarəsinin rəis müavini***
***Şakir Qasımov***

42_27 IYUl-QARA.qxd 11/28/2024 11:54 PM Page 11





## Adil Kərimlinin X Qlobal Forumda məruzəsi dinlənilib

***Portuqaliyanın Kaşkai şəhərində keçirilən BMT Sivilizasiyalar Alyansının (UNAOC) X Qlobal Forumu çərçivəsində noyabrın 27-də "Dini məkanların mühafizəsi: çoxtərəfli yanaşma" adlı qlobal konfrans təşkil olunub.***

Bu barədə Mədəniyyət Nazirliyindən bildirilib. Qeyd edilib ki, nazir Adil Kərimli konfransda çıxış edib.

Nazir konfransda təqdim olunan UNAOC-un "Dini Yerlərin Qorunması üzrə Fəaliyyət Planı: Təhlükəsiz və Dinc İbadət üçün Birlik və Həmrəylikdə" adlı hesabatını yüksək qiymətləndirib, Fəaliyyət Planının dini məkanlara qarşı dözümsüzlüklə mübarizədə ən əhatəli sənədlərdən biri olduğunu vurğulayıb.

Bildirilib ki, Azərbaycan Respublikası adıçəkilən Fəaliyyət Planında qeyd olunan mədəniyyətlərarası dialoq üzrə altı ümumdünya forumuna və dini liderlərin üç qlobal sammitinə ev sahibliyi edib. Bundan əlavə, Azərbaycan həm yerli, həm də beynəlxalq miqyasda mədəni və dini irsin qorunmasına öz töhfəsini verir.

Qeyd edək ki, "Sülhdə birlik: etimadın bərpası, gələcəyin yenidən formalaşdırılması" mövzusunda keçirilən X Qlobal Forum Sivilizasiyalar Alyansının yaranmasının 20 illiyinə həsr olunub.

## Quş ətinin qiyməti bahalaşdı

***Paytaxt sakinlərinin sözlərinə görə, əvvəllər 17, 18 manata aldıqları hinduşka əti indi 19-20 manata təklif olunur.***

"Unikal" xəbər verir ki, satıcılar da qiymətlərin qalxdığını deyirlər. Bölgə bazarlarında da vəziyyət demək olar ki, eynidir. İsmayıllı sakinləri deyirlər ki, ötən illə müqayisədə kəskin qiymət artımı var.

Satıcılar bahalaşmanın alıcı sayına təsir etdiyini bildirirlər.

Azərbaycan Quş Əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyasının İdarə Heyətinin sədri Mürvət Həsənli bildirib ki, qiymətlərin artmasının müxtəlif səbəbləri var. Xüsusən, hinduşka, qaz, ördək kimi quş növlərinin kütləvi şəkildə istehsal olunmaması bahalaşmaya təsir edən əsas amillərdəndir.

İqtisadçı Xalid Kərimli bildirib ki, son 1 ildə ümumilikdə ət və ət məhsulları 4,4 faiz bahalaşıb.

## Cinayətdə şübhəli bilinən 32 nəfər saxlanıldı

***Noyabrın 27-də ölkə ərazisində qeydə alınan 61, əvvəlki dövrlərdən bağlı qalan 1 cinayətin açılması polis əməkdaşları tərəfindən təmin olunub.***

DİN-in Mətbuat Xidmətindən "Unikal"a verilən məlumata görə, axtarışda olduğuna görə ümumilikdə 121, o cümlədən borclu şəxs qismində axtarışda olan 96 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Narkotiklərlə əlaqəli 19, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 10 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 32 nəfər saxlanılıb.

# 3300-dən çox namizəd dövlət qulluğu vəzifələri üzrə imtahan verəcək

***Dövlət İmtahan Mərkəzi (DİM) dekabrın 1-də dövlət qulluğunda inzibati vəzifələrin B növünə (inzibati icraçı vəzifələr) aid BA və BB qruplarına uyğun vəzifələr üzrə dövlət qulluğuna qəbul imtahanı keçirəcək.***

DİM-dən "Unikal"a bildirilib ki, imtahan kağız daşıyıcılar vasitəsilə Bakı və Naxçıvan şəhərlərində 14 binada təşkil olunacaq. İmtahanda iştirak etmək üçün BA qrupu üzrə 627, BB qrupu üzrə 2711 olmaqla, ümumilikdə 3338 namizəd qeydiyyatdan keçib. İmtahanın keçirilməsi üçün 14 ümumi imtahan rəhbəri, 39 imtahan rəhbəri, 311 nəzarətçi və 41 buraxılış rejimi əməkdaşı ayrılıb.

İmtahan bütün binalarda saat 11:00-da başlanacaq və 3 saat davam



edəcək. Saat 10:45-dən sonra gələn namizədlər imtahana buraxılmayacaqlar.

Namizədlər imtahana şəxsiyyəti təsdiq edən sənədin əslini və buraxılış vərəqəsini gətirməlidirlər. İmtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır. İmtahan binasına mobil telefon və digər rabitə vasitələri, elektron cihazlar, kalkulyator, elektron məlumat daşıyıcısı, kitab, dəftər, jurnal, konspekt, məlumat kitabçası, lüğət, cədvəl, çanta və digər yardımçı vəsaitlər gətirmək qadağandır. Bütün bunlar buraxılış rejimi işinin səmərəli təşkilinə və onun vaxtında başa çatdırılmasına mane olur.

İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş namizədlər DİM-in internet saytına daxil olaraq imtahana buraxılış vərəqəsini çap etməlidirlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara namizədin yaddaş kitabçası da təqdim olunur. Burada namizədlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

# Suqovuşan-Sərsəng su anbarı-Qozlukörpü-Kəlbəcər yolunun inşası nə yerdədir?

***Azərbaycan Prezidentinin tapşırıq və sərəncamları əsasında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazilərdə yol infrastrukturu layihələrinin icrası çərçivəsində Suqovuşan-Sərsəng su anbarı-Qozlukörpü-Kəlbəcər avtomobil yolunun inşası davam etdirilir.***

Bu barədə "Unikal"a Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat xidmətindən məlumat verilib.

Uzunluğu 80 km, torpaq yatağının eni 15 metr təşkil edəcək yol 2 hərəkət zolaqlı olmaqla II texniki dərəcəyə uyğun olaraq inşa edilir.

Hazırda avtomobil yolunda layihə üzrə torpaq işləri görülür. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yararsız qruntun çıxarılması və əvəzində yararlı material verilərək normativ hündürlüyə çatdırılması, yolun genişləndirilərək profilə salınması işləri həyata keçirilir.

Layihənin çətin relyefə malik dağlıq ərazidən keçən hissələrində torpaq yatağının genişləndirməsi üçün qaya tipli süxurların mexanizmlə kəsilməsi üsulundan istifadə olunur.

Yeni inşa edilən yolboyu layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif diametrlərə malik dairəvi boru, düzbucaqlı su keçidlərinin tikintisi aparılır. Layihə üzrə körpülərin və lazımi yerlərdə istinad divarının inşası da nəzərdə tutulub.

Layihənin icrası "İnşaat Norma və Qaydaları"na uyğun, texnoloji ardıcıllığa riayət olunmaqla aparılır. Tikinti işlərinin vaxtında yekunlaşdırılması üçün əra-



ziyə lazımi sayda işçi qüvvəsi və texnika cəlb olunub.

Suqovuşan-Sərsəng su anbarı-Qozlukörpü-Kəlbəcər avtomobil yolu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılır.

# Gələcəyin mütəxəssisləri üçün innovativ təhsil platforması

***Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) tələbələrinin peşəkar inkişafını dəstəkləmək məqsədilə 2022-ci ildə təsis etdiyi "AzMİU Academy", müasir dövrün tələblərinə cavab verən bir təhsil platformasıdır.***

"Unikal" xəbər verir ki, akademiya texniki bilikləri və proqram təminatı üzrə bacarıqları pulsuz öyrədərək tələbələrə gələcək karyeraları üçün rəqabət üstünlüyü qazandırmağı qarşısına məqsəd qoyub.

"AzMİU Academy" fəaliyyətə başladığı ilk ildə AutoCAD, 3ds Max, Microsoft Office və digər proqramları tədris etməklə 100-ə yaxın tələbəyə xidmət göstərib. Onlardan 40-ı təlimləri uğurla tamamlayaraq sertifikat qazanıb. İkinci tədris ilində bu göstəricilər daha da yüksəlib: 150 tələbə qeydiyyatdan keçib, 50 nəfər sertifikat əldə edib.

Hazırda, 2024-2025 tədris ilində rekord sayda - 200-dən çox tələbə müxtəlif sahələrdə tədris olunan dərslərə qatılıb. Təklif olunan kurslar arasında Revit Architecture, Python, AutoCAD İnşaat, AutoCAD Memarlıq, Frontend proqramlaşdırma və Microsoft Office kimi mövzular var. Kurslar tələbələrin ixtisaslarına uyğun olaraq formalaşdırılır və müasir tədris texnologiyalarından istifadə edilir.

"AzMİU Academy"nin mühüm xüsusiyyətlərindən biri proqramların universitetin təcrübəli tələbələri tərəfindən tədris edilməsidir. Bu yanaşma həm tədris edənlər, həm də öyrənənlər üçün qarşılıqlı təcrübə mübadiləsinə imkan yaradır və universitet icmasında əməkdaşlıq ruhunu gücləndirir.

"AzMİU Academy"nin uğurla fəaliyyət göstərməsi və tələbələr üçün unikal imkanlar təqdim etməsi universitet rəhbərliyinin, xüsusən də AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədovanın davamlı dəstəyinin nəticəsidir. Akademiyanın yaradılması rektorun təşəbbüsü ilə həyata keçirilib və onun vizyonu sayəsində tələbələr üçün pulsuz təhsil platforması formalaşıb.

Akademiyanın təşkil olunmasında və fəaliyyətinin davamlı inkişafında Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) və İnşaat fakültəsi də mühüm rol oynayıb. THİK tələbələrin akademik və sosial inkişafını dəstəkləmək üçün müxtəlif tədbirlər təşkil edərək, "AzMİU Academy"nin geniş tələbə kütləsinə çatmasına yardımçı olub. İnşaat fakültəsi isə tədris proqramlarının formalaşdırılmasında, uyğun mütəxəssislərin seçilməsində və dərs planlarının hazırlanmasında yaxından iştirak edib.

Bu əməkdaşlıq nəticəsində "AzMİU Academy" tələbələr üçün yalnız bilik əldə etmə platforması deyil, həm də gələcək mütəxəssislər arasında əməkdaşlıq və təcrübə mübadiləsi üçün bir mərkəzə çevrilib. Universitetin dəstək strukturları tələbələrin akademik və peşəkar ehtiyaclarını qarşılamaq üçün akademiyanın imkanlarını daha da genişləndirmək məqsədilə daim işlər aparır.

"AzMİU Academy" tələbələrə yalnız texniki biliklər öyrətməklə kifayətlənmir, eyni zamanda onların gələcəkdə texnoloji dəyişikliklərə uyğunlaşa bilməsi üçün baza formalaşdırır. Daha geniş təhsil imkanları yaratmaq məqsədilə AzMİU "Code Academy" ilə də əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində tələbələrə proqramlaşdırma və digər rəqəmsal bacarıqlar üzrə pulsuz kurslar təşkil olunur.

"AzMİU Academy" tələbələrin gələcəyin texnologiyayönümlü əmək bazarına mükəmməl şəkildə hazırlanmasını təmin edən unikal bir platformadır. Bu akademiyada hər tələbə öz potensialını kəşf edərək, peşəkar inkişafını təmin edə bilər.

## 5.3.18. gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanda vəzifədə olan qadınların sayı artır



***Azərbaycanda 6 qadın nazir müavini, 2 qadın komitə sədri, 3 qadın komitə sədrinin müavini, 2 qadın ombudsman vəzifəsində çalışır .***

Azərbaycanda keçirilən COP29 beynəlxalq iqlim konfransında qadınların iqlim fəaliyyətində rolu gündəmə gətirilib. “UN Women”in iqtisadi hüquqların genişləndirilməsi şöbəsinin rəhbəri Cemima Ndzuki ”Gender Bərabərliyi Günü. Şəffaflıqda Gender Tərəflər Konfransının 29-cu sessiyası”nda çıxışı zamanı deyib ki, qadınlar iqlim fəaliyyətinin ön sıralarındadır və şəffaflıq hesabatlarında təmsil olunmalıdırlar.

Onun sözlərinə görə, iqlim dəyişikliyi qadınların həyatına ciddi təsir göstərir, lakin bu təsir çox vaxt cəmiyyət tərəfindən tanınmır: ”Proqnozlarımıza görə, ən pis iqlim ssenarisində 2050-ci ilə qədər iqlim dəyişikliyi 158 milyondan çox qadını yoxsulluğa sürükləyəcək və 236 milyon qadın üçün ərzaq təhlükəsizliyi problemini daha da ağırlaşdıracaq”.

C.Ndzuki dünya birliyini gender bərabərsizliyi problemlərinə daha çox cəlb olunmağa və qadınların əsas vəzifələrdə təmsilçiliyinə diqqət yetirməyə çağırıb: ”Bundan faydalanacaq və qadınlar üçün də davamlı gələcəyi təmin edə biləcəyik”, deyə o, bildirib.

Bəs görəsən, qadınların vəzifələrdə təmsilçiliyi hazırda hansı yerdədir?

Qeyd edək ki, Azərbaycanda qadın hüquqlarının qorunmasına xüsusi diqqət yetirilir. Ölkəmizdə demək olar ki, bütün sferalarda qadınlar təmsil olunmaqdadır. Qadınların cəmiyyətin bərabərhüquqlu üzvü kimi yaradılan bütün imkanlardan istifadə etmələri, dövlət idarəçiliyində önə çəkilmələri, onlara qarşı diskriminasiyanın bütün formalarının aradan qaldırılması istiqamətində mükəmməl hüquqi baza formalaşdırılıb. Azərbaycanın Konstitusiyası kişilərə və qadınlara eyni hüquqları verib. Həmçinin Azərbaycan gender bərabərliyinin təmini üçün mühüm beynəlxalq konvensiyalara qoşulub. Belə ki, Azərbaycan 1995-ci ildə BMT-nin “Qadınlara qarşı ayrı-seçkiliyin bütün növ formalarının ləğv edilməsi haqqında” Konvensiyaya qoşulub. Son illər isə Azərbaycan qadınının cəmiyyətdə oynadığı rol daha da yüksəlib. Zərif cinsin nümayəndələri ana olmaqla yanaşı, bu gün dövlət idarəçiliyində, qanunvericilik aktlarının formalaşmasında, diplomatiya aləmində, iş dünyasında, mədəniyyət sahəsində, elmdə, təhsildə, səhiyyədə və digər mühüm sferalarda öz sözünü deməkdədir. Ölkədə uğurla həyata keçirilən gender bərabərliyi siyasəti bu gün də davam etməkdədir. Son parlament seçkilərində qadınlar fəallığı ilə daha çox seçilməyi bacardı. Hazırda 125 deputatdan yalnız 26-sını (20,8%-ni) qadınlar təşkil edir. Bu il deputat mandatı uğrunda 698 (70.51faiz) kişi, 292 (29.49) nəfər qadın namizəd mübarizə aparıb. Qeyd edək ki, 2020-ci ildə keçirilən parlament seçkilərində mübarizə aparan namizədlərin 1038 nəfəri kişi, 276 nəfəri isə qadın idi. Qadınların qanunqəbuledici və qərarverici orqanlarda təmsilçiliyinin artması gender baxımından müsbət amil kimi dəyərləndirilir.

Son illərdə Azərbaycanda qadın hakimlərin sayında sürətli artım müşahidə edilir. 2015-ci ildən bəri qadın hakimlərin sayı 2 dəfədən çox artıb. 2015-ci ildə 62 qadın hakim olub. 2023-cü ilin sonunda qadın hakimlərin sayı 139-a çatıb. Doqquz il ərzində qadın hakimlərin sayının 77 nəfər və ya 2,24 dəfə artması qeydə alınıb. Bu müddətdə kişi hakimlərin də sayı artaraq 451 nəfərdən 462 nəfərə yüksəlib.

Müqayisədən göründüyü kimi, qadın hakimlərin sayında artım sürəti çox yüksəkdir. Bunun hesabına 2015-ci ildə hakimlərin 12 faizi qadın olduğu halda, ötən ilin sonunda 23 faizi qadın olub.

2024-cü ilin əvvəlinə aid olan məlumata əsasən, ümumilikdə Azərbaycanda 601 hakim var. 2015-ci ilə nisbətən hakimlərin sayı 88 nəfər artıb.

Ötən il prezident İlham Əliyevin “Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında” Sərəncamına əsasən 32 yeni hakim təyin olunub ki, onların da 17-si qadın hakimlərdir.

Qadınların iş dünyasında təmsilçiliyi də son illər artmaqdadır. Dövlət Statistika Komitəsinin məlumatına görə fərdi sahibkarların 77,3%-ni( 1 milyon 21 min nəfəri) kişilər, 22,7%-ni (299.8 min nəfəri) isə qadınlar təşkil edib. Xatırladaq ki, ötən il kişi fərdi sahibkarların sayı 7,1% və ya 67.9 min nəfər, qadın fərdi sahibkarların sayı isə 11.5% və ya 31 min nəfər artıb.

Azərbaycanda 2024-cü ilin əvvəlində 81 qadın rəhbər vəzifədə çalışıb. Rəhbər vəzifədə çalışan qadınların sayı 2023-cü ilin əvvəlində 86 nəfər, 2020-ci ilin əvvəlində isə 94 nəfər olub. 2024-cü ilin əvvəlində icra başçısının müavini vəzifəsində 67 qadın işləyib. Bu say 2023-cü ilin əvvəlində 68, 2020-ci ilin əvvəlində 76 idi. 2024-cü ilin əvvəlinə aid olan məlumata görə, Azərbaycanda 6 qadın nazir müavini, 2 qadın komitə sədri, 3 qadın komitə sədrinin müavini, 2 qadın ombudsman (biri Naxçıvan Muxtar Respublikasının ombudsmanıdır) vəzifəsində çalışır.

2000-ci ildə dövlət başçısı “Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” fərman imzalayıb. Fərman bütün dövlət strukturlarında qadınların təmsil olunma faizinin kişilərlə eyni səviyyədə olmasını nəzərdə tutur. Sonra isə Qadın Problemləri üzrə Dövlət Komitəsinin bazasında Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Nazirlik və idarələrdə gender siyasətinə məsul koordinatorlar-fokal mərkəzlər fəaliyyət göstərir. 2006-cı ildə ölkədə “Gender bərabərliyinin təminatları haqqında” Qanun qəbul edilib. Müasir Azərbaycanda elə fəaliyyət sferası yoxdur ki, orada qadınlar təmsil olunmasın. Azərbaycan qadını bu gün idarəçilik, qanunvericilik, hüquq-mühafizə, ədliyyə orqanlarında təmsil olunur, məsul vəzifə daşıyır. Hazırda ölkəmizdə qadınlar dövlət və özünüidarətmə orqanlarında, özəl sektorda yüksək postlarda təmsil olunurlar.

***Gülayə Mecid***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.



## Neqativ kredit tarixçəsi ilə bağlı ödənişsiz bildiriş almaq mümkün olacaq

***Neqativ kredit tarixçəsi ilə bağlı ödənişsiz bildiriş almaq mümkün olacaq.***

”Unikal” xəbər verir ki, bu, Prezident İlham Əliyevin təsdiqlədiyi ”Kredit büroları haqqında” Qanuna edilən dəyişiklikdə əksini tapıb.

Qanuna əsasən, kredit bürosuna verilən neqativ məlumatlar (kredit tarixçəsi subyektinin borc öhdəliyinin yarandığı vaxtdan onun ödəmə qabiliyyətini və borc öhdəliyinin icra intizamını mənfi xarakterizə edən hər hansı məlumat) barədə bildirişlər kredit tarixçəsi subyektinə kredit bürosu tərəfindən ötürüləcək. Bu dəyişikliyə əsasən, kredit tarixçəsi subyekti onun barəsində kredit bürosuna daxil olan neqativ məlumatla bağlı ödənişsiz bildiriş almaq hüququna malik olacaq.

## 314 obyekt nağdsız ödənişlərdən imtina edib

***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti pərakəndə ticarət və iaşə obyektlərində nağdsız ödənişlərin POS-terminal deyil, kartdan-karta köçürmə əməliyyatları vasitəsilə həyata keçirilməsi hallarının qarşısının alınması məqsədilə vergi nəzarəti tədbirlərini davam etdirir.***



Nəzarət tədbirləri zamanı indiyədək 314 pərakəndə ticarət və iaşə obyektində nağdsız ödənişlərin qəbulundan imtina halları müəyyənləşdirilib, 50-dən çox sahibkarlıq subyektində POS-terminalların quraşdırılmadığı aşkarlanıb. Həmin sahibkarlıq subyektləri ilə bağlı protokollar tərtib olunub və maliyyə sanksiyalarının tətbiqi barədə qərarlar qəbul edilib.

Dövlət Vergi Xidməti bir daha bildirir ki, nağdsız vəsaitin qəbulu yalnız POS-terminal vasitəsilə həyata keçirilməli və bu zaman vətəndaşlara POS-terminalın qəbzi ilə yanaşı nəzarət-kassa aparatının çeki də təqdim edilməlidir. “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Qanuna uyğun olaraq POS-terminalların quraşdırılması, “Elektron ticarət haqqında” Qanuna əsasən isə istehlakçıların elektron ödəniş etmək imkanının yaradılması vergi ödəyicilərinin birbaşa vəzifələrinə aiddir.

42_27 IYUl-QARA.qxd 11/28/2024 11:55 PM Page 13






# Xarici dillər üzrə fəlsəfə doktoru imtahanı keçiriləcək

***Dövlət İmtahan Mərkəzi (DİM) dekabrın 1-də Bakı və Naxçıvan şəhərlərində doktorantura, dissertantura və adyunkturada təhsil alan və ya təhsilini bitirmiş iddiaçıların xarici dillər üzrə fəlsəfə doktoru imtahanını keçirəcək.***

"Unikal" xəbər verir ki, bu barədə DİM məlumat yayıb.

Bildirilib ki, imtahanda 207 nəfərin iştirakı nəzərdə tutulur. İmtahan saat 11:00-da başlanır. İmtahanın başlanmasına 15 dəqiqə qalmış saat 10:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır.

İddiaçılar imtahana şəxsiyyəti təsdiq edən sənədin əslini və "İmtahana buraxılış vərəqəsi"ni gətirməlidirlər.

İmtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır.

İmtahanın müddəti 2 saat 30 dəqiqədir və ilk 1 saat 30 dəqiqəsi test tapşırıqlarının cavablandırılmasına, son 1 saatı isə yazılı tapşırıqların yerinə yetirilməsinə (esse və vizual m?lumatın yazılı təsviri üçün) ayrılır.

İmtahanın keçirilməsi üçün ümumilikdə iki imtahan binası, üç imtahan rəhbəri, iki ümumi imtahan rəhbəri, 19 nəzarətçi, üç buraxılış rejimi əməkdaşı (mühafizə) ayrılıb.

İmtahan dinləyib-anlama, oxuyub-anlama, dildən istifadə (leksik-qrammatik tapşırıqlar) və yazı bloklarından ibarət olacaq. Bu imtahanda iştirak etməyən iddiaçılar danışıq bloku üzrə imtahana buraxılmırlar. Danışıq bloku üzrə imtahan dekabrın 4-də keçiriləcək. Danışıq bloku üzrə imtahanda iştirak etməyən iddiaçılar ilk dörd blok üzrə 30 bal və daha yüksək nəticə göstərsələr belə, şəhadətnamə ilə təmin olunmayacaqlar.

Həm xarici dil üzrə fəlsəfə doktoru imtahanlarında, həm də əcnəbi və vətəndaşlığı olmayan iddiaçılar üçün Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanında namizədlərin və iddiaçıların hər bir test tapşırığına düzgün cavabı bir balla qiymətləndirilir, səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir. Yazı və danışıq bloku üzrə tapşırıqlar 10 ballıq şkala üzrə qiymətləndirilir. Beləliklə, imtahanda toplanıla biləcək maksimal bal 50-yə bərabərdir. Dinləyib-anlama, oxuyub-anlama, dildən istifadə (leksik-qrammatik tapşırıqlar), yazı və danışıq blokları üzrə balların minimum 20 faizini, ümumilikdə isə xarici dil üzrə fəlsəfə doktoru imtahanından azı 30 bal toplamış iddiaçılar və əcnəbilər üçün Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanından azı 25 bal toplamış iddiaçılar imtahanın nəticəsinə qoyulan tələbi ödəmiş hesab edilirlər.

Qeyd edək ki, əcnəbi və vətəndaşlığı olmayan iddiaçıların Azərbaycan dili üzrə fəlsəfə doktoru və danışıq bloku imtahanı dekabrın 2-də keçiriləcək.

# "Qəzaların qarşısını almaq üçün hazırlanan Dövlət proqramı kağız üzərində qaldı" - Ekspert

***"Dünən axşam Tovuzda baş verən faciəvi qəza çılpaq bir həqiqəti bir daha göstərdi. Dünya mediasının da gündəminə düşəcək bu qəza təkrarən göstərdi ki, yol-nəqliyyat sahəsində əsas problem nə taksi məsələsi, nə avtobus zolağı məsələsi, nə cəriməni artırmaq, nə cərimədən yayınmaq üçün yollar axtarmaq məsələsi deyil".***

"Unikal" xəbər verir ki, bu barədə nəqliyyat eksperti Ərşad Hüseynov bildirib.



"Əsas məsələ və əsas hədəf real yol hərəkəti təhlükəsizliyi olmalıdır. Bu təhlükəsizlik sahəsində atılmalı olan real addımlar da 2018-ci ildə qəbul edilən, icra müddəti ötən il bitən və kağız üzərində qalan Dövlət proqramında idi.

Bu proqramda sürücü olmaq işinə yenidən baxılmasından başlamış dünyagörüşünü dəyişən, həqiqi təhlükəsiz davranış mədəniyyəti formalaşdıra bilən maarifləndirməyə qədər hər şey yazılmışdı.

Bir daha vurğulamaq istəyirəm ki, bu iş cərimələri artırmaqla, daha çox cərimə yazmaqla, yeni terminlərdən istifadə edərək gözəl çıxışlar etməklə düzəlməyəcək. Yanaşmalar dəyişməlidir, real iş görülməlidir. Dünyada bu problemdə əsaslı dönüşə nail olmuş ölkələrin təcrübəsində sınaqdan keçmiş həqiqi işlər görülməlidir. Həmin işlər çoxdur, hamısı da Dövlət proqramında yazılmışdı.

Bir qəzada 5-i say-seçmə hərbi qulluqçu olmaqla 6 nəfərin həlak olması, 1 nəfərin ağır yaralanması (təəssüf ki, 13 yaşlı bu yeniyetmənin də həyatının risk altında olduğu qeyd edilir) çox ağır nəticədir. Bu, az qala ciddi bir döyüş əməliyyatının itkisidir. Ən ağrılısı odur ki, bütün bu itkilər olmaya da bilər", - deyə Ə.Hüseynov qeyd edib.

# Bakıda qarlı havalara hazırlıq gedir - Cavabdeh şəxslərə tapşırıqlar verildi

***Bakı şəhərinin bütün rayonlarında təsdiq edilmiş tədbirlər planlarına uyğun qış mövsümündə qarlı havalara hazırlıq tədbirləri davam edir. İlk növbədə şəhər və rayon kommunal xidmətlərinin xüsusi təyinatlı texnikaları hazır vəziyyətə gətirilib, bir sıra yaşayış və qeyri yaşayış binalarında təmir işləri aparılıb, əlavə tədbirlər görülüb.***

Bu barədə "Unikal"a Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat Xidmətindən məlumat verilib.

Görülən işlərə nəzarət məqsədi ilə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən hər bir rayona cavabdeh şəxs təyin edilib, həmin şəxslər yerli İcra Hakimiyyətlərinin nümayəndələri ilə birgə mütəmadi olaraq rayonlarda qarlı havalara hazırlıq tədbirlərin keçirilməsini təmin edir, verilən tapşırıqların və görülən işlərin icra vəziyyətini yoxlayıblar.

Bu işlər çərçivəsində paytaxtın Nizami, Binəqədi və Nəsimi rayonlarında qışın qarlı havalarına hazırlıq tədbirlərinin müzakirəsi məqsədi ilə Bakı Şəhər İcra Hakimiyyətinin məsul şəxslərinin, rayon rəhbərliyi, kommunal-təsərrüfat, idarə və təşkilatlarının, təhsil müəssisələrinin və digər aidiyyəti qurumların rəhbərlərinin, həmçinin özəl sektorun nümayəndələrinin iştiraki ilə operativ müşavirələr keçirilib. Müşavirələrdə hər bir sahənin rəhbərinin hesabatı dinlənilib.

Qeyd olunub ki, rayonlardakı hər bir qurum qış aylarında üzərilərinə düşən vəzifələri dəqiq bilməli, yarana biləcək problemləri operativ şəkildə aradan qalırmağı bacarmalıdır və yerlərdə kifayət qədər duz və lazımi invertar ehtiyyatı yaradılmalıdır. Bildirilib ki, hər bir təşkilat mövsümə hazırlıq tədbirlərinin həyata keçirilməsində fəal iştirak etməli və yağıntılar zamanı bitişik ərazinin qardan və buzdan təmizlənməsi üçün müvafiq tədbirlər görməlidirlər. Qarın təmizlənməsi işlərinə kommunal qurumların texnikası ilə yanaşı idarə, təşkilat, bələdiyyə və özəl qurumların



da mövcud texnikalarının cəlb edilməsi qərara alınıb.

Müşavirələrdə rayonlardakı qurumlar arasında konkret vəzifə bölgüsü müəyyənləşdirilib, cavabdeh şəxslərə tapşırıqlar verilib. Eyni zamanda həm də ictimai iaşə müəssisələrinin, özəl qurumların rəhbərlərinə, ictimaiyyət nümayəndələrinə qarlı günlərdə Avropa ölkələrində də qəbul edilən qaydalara uyğun özlərinə aid ərazilərin təmizlənməsində yaxından iştirak etməyə çağırış edilib.

# Həbs olunan vəkil hakim qarşısında

***Bu ilin sentyabr ayında həbs olunan vəkil Babək Rzayevin işi üzrə toplanan materiallar Naxçıvan şəhər Məhkəməsinə göndərilib.***

Modern.az-ın əldə etdiyi məlumata görə, iş hakim Gülnar Səfərəliyevanın icraatına verilib. Bakı şəhərində yerləşən "Kamandar Nəsibov və partnyorları" vəkil bürosunun vəkili Rzayev Babək Vahid oğlunun qanunsuz əməlləri barədə toplanmış materiallar əsasında Naxçıvan Muxtar Respublikası Prokurorluğunda cinayət işi başlanıb.

İstintaq tədbirləri ilə vəkil Babək Rzayevin muxtar respublikada müvafiq məhkəmənin icraatında olan



cinayət işi üzrə özünün həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək müvafiq vəzifəli şəxsin qərarına təsir etmək imkanına malik olmasını vətəndaşlara bildirməklə 2024-cü ilin iyun ayı ərzində müxtəlif məbləğlərdə müqavilədən kənar pul vəsaitini tələb edib almasına əsaslı şübhələr əldə edilib.

İş üzrə toplanmış sübutlar əsasında Babək Rzayev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 312-1.1-ci (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə - nüfuz alveri) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində müstəntiqin vəsatəti, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# 2024-cü ilin 9 ayında Qazaxda sənaye müəssisələrinin işi belə olub




***2024-cü ilin yanvar-sentyabr ayları ərzində sənaye müəssisələri tərəfindən 153 milyon 36,9 min manatlıq sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmiş, 2023-cü ilin yanvar-sentyabr ayları ilə müqayisədə 19,1 faiz çox olmuşdur. Ümumi istehsalın 86,2 faizini sənaye məhsulları, 13,8 faizini isə sənaye xidmətləri təşkil etmişdir.***

Məhsulun 15,9 faizi mədənçıxarma sektorunda, 70,5 faizi emal, 12,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Qeyri-dövlət sektorunda istehsalın həcmi 2023-cü ilin yanvar-sentyabr aylarına nisbətən müqayisəli qiymətlərlə 20,4 faiz artaraq 132 milyon 252,4 min manat və ya sənaye məhsulunun 86,4 faizini təşkil etmişdir.

**2024-cü ilin yanvar-sentyabr aylarında məhsul istehsalının sənayenin bölmələri üzrə strukturu, faizlə**




İstehlakçılara 157 milyon 94,5 min manatlıq sənaye məhsulu göndərilmiş, 01 oktyabr 2024-cü il tarixinə sənaye müəssisələrinin anbarlarında 8 milyon 833,2 min manatlıq hazır məhsul ehtiyatı olmuş və sənayenin ümumi məhsulunun 5,8 faizini təşkil etmişdir.

**Sənayenin fəaliyyət növləri üzrə məhsul buraxılışı**

| Fəaliyyət növlərinin adı | 2024-cü ilin yanvar-sentyabr aylarında istehsal edilmişdir, min manatla | 2023-cü ilin yanvar-sentyabr aylarına nisbətən sabit qiymətlərlə, faizlə | İstehsalın ümumi həcmində xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi *)** | **153036,9** | **119,1** | **100,0** |
| *o cümlədən:* | | | |
| dövlət sektoru | 20784,5 | - | 13,6 |
| qeyri-dövlət sektoru | 132252,4 | - | 86,4 |
| **Mədənçıxarma sənayesi** | **24351,7** | **139,2** | **15,9** |
| *o cümlədən:* mədənçıxarma sənayesinin digər sahələri | 24351,7 | 139,2 | 15,9 |
| **Emal sənayesi** | **107846,1** | **118,6** | **70,5** |
| *o cümlədən:* | | | |
| qida məhsullarının istehsalı | 4883,9 | 13054,4 | 3,2 |
| içki istehsalı | 250,8 | 22,6 | 0,2 |
| mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı | 96,0 | - | 0,1 |
| poliqrafiya məhsullarının istehsalı | 369,1 | 5225,6 | 0,2 |
| rezin və plastik kütlə məmulatlarının istehsalı | 126,0 | - | 0,1 |
| tikinti materiallarının istehsalı | 94491,3 | 117,8 | 61,7 |
| mebellərin istehsalı | 7607,0 | 96,3 | 5,0 |
| sair sənaye məhsullarının istehsalı | 4,5 | 31,9 | - |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 17,5 | 30,7 | - |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | 19551,0 | 99,8 | 12,8 |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | **1288,1** | **116,5** | **0,8** |
| o cümlədən: suyun yığılması, təmizlənməsi və paylanması | 760,6 | - | 0,5 |
| digər tullantıların yığılması və məhv edilməsi | 527,5 | - | 0,3 |

*) Fiziki şəxslər və ev təsərrüfatlarında sənaye fəaliyyətinə dair məlumatlar nəzərə alınmaqla

Emal sektorunun müəssisələri tərəfindən 2024-cü ilin yanvar-sentyabr ayları ərzində 107 milyon 846,1 min manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmiş, rayon üzrə məhsul istehsalının ümumi həcmində 70,5 faiz təşkil etmiş və 2023-cü ilin yanvar-sentyabr aylarına nisbətən 18,6 faiz artmışdır. Sahə üzrə məhsul istehsalının əsasını tikinti materiallarının istehsalı (87,6 faiz), qida məhsullarının istehsalı (4,5 faiz), mebellərin istehsalı (7,1 faiz) təşkil edir.

Qida məhsullarının istehsalı 4 milyon 883,9 min manat olmuş və bölmənin məhsullarının 4,5 faizini təşkil etmişdir.

İçki istehsalının real həcmi 250,8 min manat olmuş, bölmə üzrə məhsulun 0,2 faizini təşkil etmişdir.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsinin müəssisələri tərəfindən 2024-cü ilin yanvar-sentyabr ayları ərzində 19 milyon 551,0 min manatlıq məhsul buraxılmış və xidmətlər göstərilmişdir. Bu göstərici 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 0,2 faiz azalmış, rayon əhalisinə və digər istehlakçılara 78279,8 MVts elektrik enerjisi, 105,29 milyon kub metr təbii qaz verilmişdir.

Su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsinin real həcmi 2023-cü ilin yanvar-sentyabr aylarına nisbətən 16,5 faiz artmış və 1 milyon 288,1 min manat təşkil etmişdir. Əhaliyə və digər istehlakçılara 930,5 min kub metr təbii su verilmişdir.

*Qazax rayon Statistika İdarəsi*

# Tarix yazan şəhid Elmir



***Yağı düşmənə qarşı 44 günlük haqq savaşımız başlananda minlərlə qəlbi Vətən, torpaq sevdalı igidimiz ölümün gözünə dik baxa-baxa özünü odun-alovun içinə atdılar. Və qanları bahasına qəhrəmanlıq salnaməsi yazaraq xalqımıza şanlı qələbə yaşatdılar. İndi hər biri Vətən səmasının əbədi parlaq günəşinə çevrilən onlardan biridə 1988-ci il oktyabrın 5-də Cəlilabad rayonunun Göytəpə şəhərində anadan olan Azərbaycan Ordusunun baş giziri şəhid Elmir Məmmədovdur. Adı dillərdə qəhrəmanlıq dastanına dönən Cəlilabadin igid oğlu həm də ölümündən sonra dövlət tərəfindən "Vətən uğrunda", "Cəsur döyüşçü", Cəbrayılın və Füzulinin azadlığına görə medallarla təltif olunub.***

Vətənpərvərlik ruhunda tərbiyə alan, Azərbaycanın hər qarşını canında əziz tutan Elmir Məmmədov yağı tərəfindən Qarabağın işğalını öz vicdanına sığışdıra bilməyib. Elə ordu sıralarına yola düşməkdə amalı dığalardan Vətənin qisasını almaq olub. Əsgərliyi cəbhə bölgəsində keçib. Nümunəvi xidmət etməklə seçilib. Hərbin sirlərinə mükəmməl yiyələnmək üçün təlimlərdə həmişə fəal olub. Cəbhə xətində ermənilərlə üz-üzə gələndə onlara layiqli cavab verib. Həqiqi hərbi xidmətini üzüağ başa vursa da, yenidən bu geyimi daşımağa qərar verib. Çünki, cənnət məkan yurd yerimiz Qarabağ hələ yağı tapdağında qalırdı. Elmir gizir təhsilini alıb Vətənin keşiyində durub. Və onun yolunda döyüşüb ölməyi özünə şərəf bilib. Ürəyində arzuladığı günə isə böyük həvəslə hazırlaşıb..

Elmir Məmmədov baş gizir rütbəsində 2016-cı ilin Aprel döyüşlərində həmişə yağıya qarşı öndə savaşıb və böyük şücaət göstərib. İgid döyüşçü ölümə meydan oxuya-oxuya Lələ təpəyə üçrəngli bayrağımızı taxanlardan olub. Bu möhtəşəm qələbədən sonra deyib: " Vətən bizim namusumuz, şərəfimizdir. Onun torpaqlarına yağı ayağı yaraşmaz."

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və müstəqil ölkəmizin ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı baş gizir Elmir Məmmədov Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən haqq savaşımızda ilk gündən düşmənin kabusuna dönüb. Onlara qan uydurur, neçə-neçə canlı qüvvəsini, hərbi texnikasını məhv edib. Füzulidə gedən ağır ölüm-dirim vuruşunda düşmən gülləsinə tuş gəlsə də, onun qəhrəmanlığı, yüksək döyüş məharəti əsgərlərə nümunə olub...

Bəli, şərəfli ölümü Vətəninə, millətinə baş ucalığı gətirən, müqəddəs şəhidlik zirvəsindən gələcəyə boylanan Elmir Məmmədovun həyat yolu zaman-zaman gələn nəsillərə örnək olacaq.

*Zəfər Orucoğlu, AJB üzvü*

# Ağsu rayonunun sənaye üzrə göstəriciləri

***Ağsu rayonunda 2024-cü ilin yanvar-oktyabr aylarında 43694,8 min manatlıq sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir.Bu istehsalın 40077,2 min manatını emal sənayesi, 3010,4 min manat elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təshizatı, 327,6 min manat su təchizatı, tullantıların təmizlənməsi və emalı, 279,6 min manatını isə mədənçıxarma sənayesinin digər sahələri təşkil etmişdir.***

2023-cü ilin müvafiq dövründə 46985,6 min manatlıq sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmiş, 43494,0 min manatını emal sənayesi, 2614,9 min manat elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təshizatı, 353,3 min manat su təchizatı tullantıların təmizlənməsi və emalı, 523,4 min manatını isə mədənçıxarma sənayesinin digər sahələri təşkil etmişdir.

*Ağsu Rayon Statistika idarəsinin baş məsləhətçisi Leyla Cəbrayılova*

42_27 IYUI-QARA.qxd 11/28/2024 11:55 PM Page 15



# Kobaxidze yenidən Gürcüstanın Baş naziri vəzifəsinə seçildi



***İrakli Kobaxidze Gürcüstanın Baş naziri vəzifəsinə təsdiqlənib.***

"Unikal" xəbər verir ki, müvafiq qərar parlamentin bugünkü iclasında qəbul edilib.

Xatırladaq ki, Kobaxidze bu vəzifəni 2024-sü il fevralın 8-dən tutur.

# 44 günlük müharibənin "məşhur" erməni polkovniki yenidən vəzifədə

***Ermənistan Müdafiə Nazirinin keçmiş mətbuat katibi (2012-2020), polkovnik Artsrun Hovhannisyan yenidən nazirlikdə vəzifəyə təyin olunub.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb. 2020-ci ildə olan 44 günlük müharibədən sonra uzun müddət işsiz olan Artsrun Hovhannisyan bu dəfə parlamentin Müdafiə Komitəsinə ekspert kimi gətirilmişdi. Lakin sonradan işdən çıxdı.

"Joqovurd" qəzetinin məlumatına görə, o, Müdafiə Nazirliyində xidmətə qayıdıb.

Qeyd edək ki, adıçəkilən şəxs müharibə zamanı dezinformasiya və gülünc bəyanatları ilə gündəm olmuşdu.

***Ağarza Elçinoğlu***

# Rusiya səfiri Almaniya XİN-ə çağırıldı



***Rusiyanın Almaniyadakı səfiri Sergey Neçayev Almaniya Xarici İşlər Nazirliyinə çağırılıb.***

"Unikal" xəbər verir ki, bu barədə idarənin rəhbəri Annalena Barbok məlumat yayıb.

Qeyd edək ki, Rusiya "Pervıy" telekanalının Almaniya bürosunun bağlanmasına cavab olaraq Almaniyanın "ARD" media qrupunun iki jurnalistin ölkədən çıxarmağa qərar verib.

# Papa Türkiyəyə səfər edəcək

***Katoliklərin ruhani lideri Papa Fransisk Türkiyəyə gələcəyini açıqlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə İtaliyanın ANSA xəbər agentliyi məlumat yayıb.

Məlumata görə, Papa Fransisk bu gün verdiyi açıqlamada, gələn il Xristian Kilsəsinin birinci şurasının ildönümündə Türkiyənin İznik şəhərinə səfər etməyi planlaşdırdığını açıqlayıb.

# "Bu, regionda geosiyasi vəziyyəti xarakterizə edir" - Lukaşenko

***KTMT-nin sammitində erməni tərəfinin iştirak etməməsi regionda və müəyyən dərəcədə KTMT-nin özündə də mövcud geosiyasi vəziyyəti xarakterizə edir.***

"Unikal" xəbər verir ki, bu barədə Belarus prezidenti Aleksandr Lukaşenko KTMT-nin Astana sammitində çıxışı zamanı bildirib.

"Bu gün birinci çıxış etmək şərəfinə nail oldum, çünki erməni həmkarlarımız sessiyada iştirak etmirlər. Yeri gəlmişkən, bu, həm regionda, həm də müəyyən dərəcədə bizim təşkilatda mövcud geosiyasi vəziyyəti xarakterizə edir", - deyə o qeyd edib.

***Ağarza Elçinoğlu***

# KTMT Ermənistanın ittifaqdakı gələcəyini dəyərləndirib

***İrəvanın assosiasiyanın tədbirlərində iştirak etməməsinə baxmayaraq, KTMT Ermənistanı müttəfiq hesab etməkdə davam edir.***

"Unikal" TASS-a istinadən xəbər verir ki, bunu Birliyin baş katibi İmanqali Tasmaqambetov deyib.

# Avropa Parlamenti Gürcüstandakı seçkiləri tanımadı

***Avropa Parlamentinin üzvləri səs çoxluğu ilə Gürcüstandakı vəziyyətlə bağlı yeni qətnamə qəbul ediblər.***



"Unikal" xəbər verir ki, bu barədə xarici KİV məlumat yayıb. Sənəddə ölkədə keçirilən parlament seçkilərinin nəticələrinin tanınmaması, təkrar səsvermənin keçirilməsi və gürcü siyasətçilərinə qarşı sanksiyaların tətbiqi çağırışları var.

Qətnamədə deyilir: "Avropa Parlamenti parlament seçkilərinin hər hansı tanınmasını rədd edir və prosesin həqiqi ədalətliliyini və şəffaflığını təmin etmək üçün yaxşılaşdırılmış seçki şərtləri altında, yaxından beynəlxalq müşahidə ilə bir il ərzində təkrar səsvermənin keçirilməsini tələb edir".

Gürcüstan Avropa İttifaqına üzv olmağa namizəddir. Avropa Parlamentinin xarici siyasət məsələlərinə dair qətnamələri məsləhət xarakteri daşıyır və Aİ təsisatları və ya üzv dövlətlər üçün məcburi deyil. Sənədi 444 deputat dəstəkləyib, 72 deputat əleyhinə, 82 deputat isə bitərəf qalıb.

***Ağarza Elçinoğlu***

# "Kiyev rejiminin orduya əmr verməyə haqqı yoxdur" - Putin

***Ukrayna hakimiyyəti hazırda tamamilə qeyri-legitimdir, onların Ukrayna ordusuna əmr verməyə haqqı yoxdur.***

"Unikal" xəbər verir ki, bunu Rusiya prezidenti Vladimir Putin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) sammitində deyib.

Putin vurğulayıb ki, indiki "Kiyev rejiminin rəhbərləri qəsbkardırlar".

Bundan əvvəl Britaniyanın "The Economist" jurnalı Ukraynada prezident seçkilərinin 2025-ci il mayın 25-də keçirilməsinin planlaşdırıldığını yazmışdı. Eyni zamanda, nəşrə görə, Zelenskinin ofisi qarşıdan gələn seçki kampaniyasına hazırlaşdığını inkar edir və "əksər mənbələr bunun baş tutacağına şübhə ilə yanaşır".

***Gülayə Mecid***



# "Azərbaycan göstərdi ki, dedikləri nağıl deyil" - Manvel Sarkisyan

***"Demarkasiya və delimitasiya ilə bağlı əsasnamə təsdiqlənəndə Azərbaycanın rəsmi şəxslərindən biri elan etdi ki, əgər belə bir tənzimləmə varsa və əsas məqsəd sərhədlərin müəyyənləşdirilməsidirsə, deməli, həmin ərazidə heç bir müşahidəçi ola bilməz".***

"Unikal" xəbər verir ki, bunu erməni politoloq Manvel Sarkisyan açıqlayıb.



Onun sözlərinə görə, Azərbaycan tərəfinin tələblərindən biri də odur ki, Azərbaycan-Ermənistan sərhədində üçüncü tərəf müşahidəçiləri olmamalıdır: "Əminəm ki, müşahidəçilər getməyənə qədər heç bir demarkasiya işi olmayacaq. Düzdür, Ermənistandan da yüksək səviyyədə deyilib ki, əgər sərhəddisə, onda onların burada olmasının nə mənası var? Yəni elan edirlər ki, biz əvvəldən demarkasiya aparaq, sonra müşahidəçiləri çıxaraq. Məsələn, Tavuş sektorunda 12 km-lik demarkasiya kimi - orada müşahidəçi yoxdur.

Ancaq bütün bunlara qarşı çıxa bilmək üçün özünüzü necə təqdim etdiyinizi bilməlisiniz. Bizdə bunu öz daxili auditoriyası üçün deməyi xoşlayırlar, amma bu illər ərzində Azərbaycan göstərdi ki, dedikləri nağıl deyil. Ermənistanda ancaq "suveren siyasət" sözünü öyrəniblər".

***Ağarza Elçinoğlu***

# "Qərb Putinin təklifini qəbul etsə, danışıqlar mümkündür" - Rusiya XİN

***ABŞ və Qərb Rusiya prezidenti Vladimir Putinin sülh təklifinə alternativin olmadığını başa düşsələr, Ukrayna böhranının danışıqlar yolu ilə həlli mümkündür.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov açıqlayıb.

"Əgər onlar özlərini aldatmağa davam etsələr və bəzi yanlış başa düşülən sxemlərdə israr etsələr və vəziyyəti kömək, silahla gücləndirsələr, eləcə də Kiyevi daim yeni təxribatlara və cinayət əməllərinə təhrik etsələr, əlbəttə ki, seçim üçün heç bir əsas olmayacaq. Bu, kifayət qədər sadədir - ya Putinin təklifini qəbul edin, ya da vəziyyətin daha da pisləşməsi perspektivi ilə indi olduğu yerdə qalın", - Ryabkov vurğulayıb.

Xatırladaq ki, iyun ayında Rusiya prezidenti Vladimir Putin Ukraynadakı münaqişənin sülh yolu ilə həlli təşəbbüsündən çıxış edib: "Moskva Ukrayna qoşunlarının Rusiyanın yeni regionlarının ərazisindən çıxarıldıqdan sonra dərhal atəşi dayandıracaq və danışıqlara hazır olduğunu bəyan edəcək". Bundan əlavə, Rusiya lideri əlavə edib ki, Kiyev NATO-ya üzv olmaq niyyətindən imtina etdiyini bəyan etməli, demilitarizasiya və denazifikasiyanı həyata keçirməli, həmçinin neytral, bloklara qoşulmayan və nüvəsiz statusu qəbul etməlidir.

***Ağarza Elçinoğlu***

42_27 IYUl-QARA.qxd 11/28/2024 11:56 PM Page 16



# Frenk Lempard bu klubun baş məşqçisi təyin olundu

***İngiltərə millisinin və "Çelsi"nin sabiq futbolçusu Frenk Lempard "Koventri Siti"nin baş məşqçisi təyin olunub.***

"Unikal" Çempionşip təmsilçisinin rəsmi saytına istinadən xəbər verir ki, 46 yaşlı mütəxəssislə 2,5 illik müqavilə imzalanıb.

Aşağı liqa təmsilçisi uğursuz nəticələrə görə 8 il komandaya rəhbərlik etmiş Mark Robinsonla bir müddət əvvəl yollarını ayırmışdı.




Qeyd edək ki, Frenk Lempard daha əvvəl "Derbi Kaunti", "Everton" və "Çelsi" komandalarını da çalışdırıb.

# "Çoxları məni küçədə görəndə..." - Zubir

***"Azərbaycan futbolu sevən ölkədir. Çoxları məni küçədə görəndə söhbət etmək, şəkil çəkdirmək istəyir".***

"Unikal" xəbər verir ki, bu sözləri "Qarabağ"ın futbolçusu Abdullah Zubir "L'Equipe" nəşrinə açıqlamasında deyib.

UEFA Avropa Liqasının əsas mərhələsində Bakıda "Lion"a qarşı keçirəcəkləri V tur oyunundan öncə ölkəsinin mətbuatına danışan fransalı yarımmüdafiəçi Azərbaycandakı həyatından söz açıb. "Qarabağ"da 7-ci mövsümünü keçirən 33 yaşlı vinger ölkəmizdə özünü rahat hiss etdiyini bildirib: "Burada heç vaxt xoşagəlməz halla üzləşməmişəm. Mən sahildə yaşayıram, orada bütün restoranlar Fransadakı kimidir. Bir sözlə, həyat yaxşıdır. Azərbaycan sülhsevər və təhlükəsiz ölkədir. Bu barədə əlavə şərhə ehtiyac yoxdur".




"Qarabağ" haqqında da danışan Zubir əlavə edib: "Klub iddialıdır, ardıcıl 11-ci mövsümdür avrokuboklarda oynayır və bu məni çox həyəcanlandırır. Ən maraqlı oyunlarımız cümə axşamları olur. "Arsenal", "Leverkuzen", "Tottenhem", "Vilyarreal"a qarşı oynamışam. Amma heç vaxt Çempionlar Liqasında iştirak etməmişəm, iki dəfə pley-offda mübarizəni dayandırmışıq. Bu hissi "Qarabağ"la da yaşamaq istərdim".

Qeyd edək ki, "Qarabağ" - "Lion" oyunu bu gün Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək. Qarşılaşma saat 21:45-də start götürəcək.

# Paralimpiya çempionumuz afrikalı idmançı ilə evləndi

***İkiqat Paralimpiya çempionu Lamiyə Vəliyeva subaylığın daşını atıb.***

"Unikal" İdman.biz-ə istinadən xəbər verir, 22 yaşlı paraatlet Cənubi Afrika Respublikasından olan idmançı ilə evlənib. Məlumata görə, dördqat dünya çempionumuz artıq əcnəbi atletlə Bakıda nikaha da daxil olub. Lakin cütlüyün hələlik toy mərasimi keçirilməyib.

Qeyd edək ki, Tokio-2020 Yay Paralimpiya Oyunlarında 1 qızıl və 1 gümüş medal qazanan Lamiyə Vəliyeva Paris-2024-də də eyni uğuru təkrarlayıb.




# Di Mariya Messini geridə qoydu

***"Benfika"nın yarımmüdafiəçisi Anhel Di Mariya yeni uğura imza atıb.***

QOL.az xəbər verir ki, o, Çempionlar Liqasında "Monako" ilə matçda (3:2) 2 qol ötürməsi verib.

Nəticədə 36 yaşlı argentinalı Çempionlar Liqasında məhsuldar ötürmələrinin sayını 41-ə çatdırıb. O, bu göstəricidə Lionel Messini ötüb.

Di Mariyanı turnirin rekordunu təkrarlamaqdan yalnız 1 qol ötürməsi ayırır. Hazırda rekord Kriştiano Ronaldo və Rayan Giqqsə (42 qol ötürməsi) məxsusdur. Qeyd edək ki, bu mövsüm Di Maria 16 oyuna çıxıb, 8 qol vurub və 5 məhsuldar ötürmə edib.



# "Real"dan Çempionlar Liqasında antirekord

***"Real" Çempionlar Liqasında antirekorda imza atıb.***

QOL.az "Opta"ya istinadən xəbər verir ki, Madrid təmsilçisi turnirin hazırkı qalibi kimi titulu qazandıqdan sonra qrup mərhələsində üç oyunu uduzan ilk komanda olub.

Çempionlar Liqasının Liqa mərhələsinin 5-ci turunda "Kral klubu" "Liverpul"a 0:2 hesabı ilə məğlub olub. Daha əvvəl isə komanda "Milan"a (1:3) və "Lill"ə (0:1) uduzmuşdu.

# "Neftçi" - "Qarabağ" oyununu FIFA referisi idarə edəcək

***Misli Premyer Liqasının XV turunda keçiriləcək "Neftçi" - "Qarabağ" oyununu FIFA referisi idarə edəcək.***

"Unikal" AFFA-nın rəsmi saytına istinadən xəbər verir ki, matçın baş hakimi Əliyar Ağayev olacaq.

Dekabrın 1-də "Neftçi Arena"da təşkil olunacaq qarşılaşma saat 19:00-da start götürəcək.




Misli Premyer Liqası

**II dövrə, XV tur**

**29 noyabr**

16:00. "Araz-Naxçıvan" - "Turan Tovuz"

Hakimlər: Cavid Cəlilov, Kamran Bayramov, Müslüm Əliyev, Nicat İsmayıllı.

VAR: Rauf Cabarov.

AVAR: Eyyub İbrahimov.

Hakim-inspektor: İmanxan Sultani.

Liv Bona Dea Arena

19:00. "Sabah" - "Səbail"

Hakimlər: Rəvan Həmzəzadə, Cəmil Quliyev, Şirmamed Mamedov, Əli Əliyev.

VAR: Rauf Allahverdiyev.

AVAR: Rəhman İmami.

Hakim-inspektor: Ramil Diniyev.

Bank Respublika Arena

**30 noyabr**

14:30. "Şamaxı" - "Kəpəz"

Hakimlər: İnqilab Məmmədov, Zöhrab Abbasov, Rahil Ramazanov, Əkbər Əhmədov.

VAR: Tural Qurbanov.

AVAR: Teymur Teymurov.

Hakim-inspektor: Əmrah İbrahimov.

Şamaxı şəhər stadionu

17:00. "Zirə" - "Sumqayıt"

Hakimlər: Rəşad Əhmədov, Vüsal Məmmədov, Rəhman İmami, Elvin Bayramov.

VAR: Nicat İsmayıllı.

AVAR: Asiman Əzizli.

Hakim-inspektor: Ceyhun Haşımov.

Zirə İdman Kompleksinin stadionu

**1 dekabr**

19:00. "Neftçi" - "Qarabağ"

Hakimlər: Əliyar Ağayev, Zeynal Zeynalov, Akif Əmirəli, Elçin Məsiyev.

VAR: Kamal Umudlu.

AVAR: Elşad Abdullayev.

Hakim-inspektor: Asim Xudiyev.

"Neftçi Arena"

# İkardi boşanmaq üçün tutduğu vəkili ilə sevgili oldu

***"Qalatasaray"ın ulduz hücumçusu Mauro İkardi vəkili Ancela Burqos ilə eşq yaşayır.***

"Unikal" xəbər verir ki, bu barədə İtaliya mətbuatı məlumat dərc edib. Bildirilir ki, həyat yoldaşı Vanda Nara tərəfindən xəyanətə məruz qalan İkardi boşanmaq üçün tutduğu vəkili Burqos ilə iki həftə əvvəl yeni münasibətə başlayıb. İkardi və Burqos İtaliya mətbuatında əks olunan bu iddialarla bağlı heç bir açıqlama verməyiblər.

# Vasif Talıbovun qardaşının sədr olduğu federasiya ləğv edildi

***Naxçıvan Muxtar Respublikası Boks Federasiyası fəaliyyətini dayandırıb.***

"Unikal" xəbər verir ki, qurum ötən gün ləğv olunub. Bununla yanaşı, Naxçıvanda federasiyanın bölməsinin yaradılacağı gözlənilir. Qeyd edək ki, Naxçıvan Boks Federasiyası 2002-ci ildə fəaliyyət göstərirdi.

# "Qarabağ" "Lion"a böyük hesabla uduzdu

***Bu gün UEFA Avropa Liqasında 5-ci turun oyunları keçirilir.***

"Unikal" xəbər verir ki, Azərbaycanı bu turnirdə təmsil edən "Qarabağ" da meydana çıxıb.

Ağdam klubu Bakıda "Lion"la (Fransa) üz-üzə gəlib. Tofiq Bəhramov adına Respublika stadionunda keçirilən qarşılaşma "Lion"un 4:1 hesablı qələbəsi ilə başa çatıb.

"Lion" hazırda 10 xalla turnir cədvəlində 6-cı pillədə qərarlaşıb. 3 xalı olan "Qarabağ" isə 31-cidir.